# QEYRİ-NEFT İXRACINA MÜHÜM DƏSTƏK

Qeyri-neft-qaz ixracının stimullaşdırılması məqsədilə tətbiq edilən yeni dəstək mexanizmi ixracatçıların xərclərini azaltmağı hədəfləyir.

Prezident İlham Əliyevin müvafiq Fərmanına əsasən, Azərbaycan mənşəli qeyri-neft-qaz mallarına ixrac daşıma dəstəyi göstəriləcək. Yeni mexanizm çərçivəsində dəstəyin məbləği daşınmaya çəkilən və nağdsız qaydada ödənilən faktiki nəqliyyat xərcləri, həmçinin ixrac olunan məhsulun gömrük dəyəri əsasında hesablanacaq.

SƏHİFƏ 6-da



‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

8 AVQUST ŞƏNBƏ 2026 № 29 (4280) Qiyməti - 60 qəpik www.kaspi.az





## KİYEVDƏ MÜHÜM TƏMASLAR

Ceyhun Bayramovun Ukraynaya səfərinin bir müddət öncə Rusiyaya reallaşan ziyarətindən sonraya təsadüf etməsi diqqət çəkir. Münaqişə tərəflərinin hər ikisinə edilən ziyarət Azərbaycanın problemə yanaşmasını göstərir.

SƏHİFƏ 2-də



## GƏLƏCƏYİN ENERJİSİNİ AVROPAYA DAŞIYIRIQ

Aİ ilə Azərbaycan arasında yaşıl enerji sahəsində əməkdaşlıqla bağlı ciddi müzakirələr aparılır. Ölkəmizin yaşıl enerjiyə yatırımları, potensial ixrac hədəfləri bu sahədə uğurlu əməkdaşlıq modelinin yaradılacağına inamı artırır.

SƏHİFƏ 4-də



## BALIQ BAZARINDA “TƏMİZLƏMƏ” ƏMƏLİYYATI

Balıq satışına nəzarəti gücləndirəcək yeni qanun layihəsi məhsulların mənşəyinin izlənməsini nəzərdə tutur. Bu, bazarda şəffaflığı artıra bilər, lakin gözlənilən nəticə yeni qaydaların necə tətbiq olunacağından asılıdır.

SƏHİFƏ 12-də

### UZAQGÖRƏN XARİCİ SİYASƏTİN MƏNTİQİ NƏTİCƏSİ

# SÜLHƏ APARAN TARİXİ RAZILAŞMALAR



Tarixi Vaşinqton görüşündən sonra Azərbaycan və Ermənistan arasında real sülh mövcuddur. Hələlik tam rəsmi status qazanmasa da, mövcud vəziyyət həm Bakının, həm də İrəvanın maraqlarına cavab verir.

**BU, BAKININ DİPLOMATİK ZƏFƏRİ İDİ**

İşğal faktına son qoyan Azərbaycan Cənubi Qafqazda şərtlərini özünün diktə etdiyi yeni geosiyasi reallıqlar yaratdı. Çoxları bu reallıqları ilk anda qəbul etmək istəməsə də, Prezident İlham Əliyevin dahiyanə strategiyası hər kəsi ölkəmizin mövqeyi, statusu ilə hesablaşmağa vadar etdi.

**RAZILAŞMADAN SONRA ATILAN ADDIMLAR**

Vaşinqton görüşlərindən keçən bir il müddətində Azərbaycan və Ermənistan arasında sülh gündəliyi ilə bağlı çox ciddi addımlar atılıb. Öncə onu qeyd edək ki, ABŞ danışıqlarında əldə olunmuş razılaşmalar əsasında Zəngəzur dəhlizi ilə bağlı proseslər sürətləndirilib.

SƏHİFƏ 3-də

### “İdarəetmədə yeni dövr başlayır”

# EYNİ OFİSDƏ FƏRQLİ İŞ SAATLARI



Hər gün səhər saat 08:30-da Bakı küçələrində eyni mənzərə təkrarlanır. Nəqliyyatın hərəkəti iflic olur, avtobus və metrolarda addım atmağa yer qalmır, siqnal səsləri isə şəhərin əsas ritminə çevrilir. İşə gecikənlər, ictimai nəqliyyata minə bilməməyin gərginliyi, hər gün nəqliyyatlardakı aqressiv davalar... Səbəb hər kəsə məlumdur. On minlərlə insan eyni dəqiqələrdə, eyni vaxt çərçivəsində iş yerinə, məktəbə, universitetə çatmağa çalışır.

SƏHİFƏ 8-də



## MEDİA VƏ YAYIM ŞURASI YARADILIB

Media və Yayım Şurasının strukturu formalaşdırılıb. Prezident İlham Əliyevin Fərmanına əsasən, Media və Yayım Şurası Audiovizual Şuranın hüquqi varisidir, onun hüquq və öhdəlikləri, habelə əmlakı Şuraya keçir.

SƏHİFƏ 2-də



## AVROPANIN AFRİKA QAPISI

Bir çox miqrant üçün Seuta sadəcə keçid məntəqəsidir. Onların əsas məqsədi İspaniyanın materik hissəsinə, daha sonra isə Fransa, Almaniya, Niderland və digər Avropa ölkələrinə çatmaqdır.

SƏHİFƏ 5-də



## AVTOMOBİL BAZARINDA KREDİT BUMU

Son illərdə avtomobillərin kreditlə əldə edilməsi sahəsində ciddi dəyişikliklər müşahidə edilir. Bu prosesdə lizinq ön plana çıxır. Daha əlçatan avtomobillər isə elektromobil və hibridlərdir.

SƏHİFƏ 13-də



SOCAR-a verilən səmt qazı artıb

SƏHİFƏ 10-da



İki il təhsil, yoxsa iş təcrübəsi?

SƏHİFƏ 11-də



Kaskoda yeni dövr

SƏHİFƏ 9-da



Süfrəmizdəki balın yeni “pasportu”

SƏHİFƏ 14-də



Uduzdular, amma yenə də ümid var

SƏHİFƏ 16-da



# Media və Yayım Şurası yaradılıb

Azərbaycan Respublikası Media və Yayım Şurasının strukturu formalaşdırılıb. Bu barədə Prezident İlham Əliyev Fərman imzalayıb. Fərmana əsasən, Media və Yayım Şurası Audiovizual Şuranın hüquqi varisidir, onun hüquq və öhdəlikləri, habelə əmlakı Şuraya keçir. Media və Yayım Şurasının işçilərinin say həddi 108 ştat vahididir. Fərmanla "Azərbaycan Respublikası Media və Yayım Şurasının strukturu" təsdiq edilib. "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs ləğv edilib və onun hüquq və öhdəlikləri, habelə əmlakı Azərbaycan Respublikası Media və Yayım Şurasına verilib.

Nazirlər Kabineti bir ay müddətində Azərbaycan Respublikası Audiovizual Şurasının və "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxsin balansında olan dövlət əmlakının Şuranın balansına verilməsini təmin etməli, cari ildə dövlət büdcəsində Azərbaycan Respublikası Audiovizual Şurası və "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs üçün nəzərdə tutulmuş vəsaitlər dairəsində Şuranın fəaliyyətinin maliyyələşdirilməsinə dair məsələləri həll etməli, Şuranın inzibati bina ilə təmin edilməsi ilə bağlı tədbirlər görməlidir.

Eyni zamanda Nazirlər Kabineti Şuranın işçilərinin Azərbaycan Respublikası Audiovizual Şurası və "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxsin işçiləri hesabına komplektləşdirilməsinin təmin edilməsi ilə əlaqədar tədbirlər görməlidir.

Fərmanla təsdiqlənən qanuna əsasən, Şuranın iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Şuranın qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Şuranın qərarı qəbul edilərkən səslər bərabər olduqda, Şura sədrinin səsi həlledici hesab edilir. Müəyyən edilmiş struktur, say həddi daxilində Şuranın Aparatının strukturunu, ştat cədvəlini, ayrılmış büdcə təsisatı daxilində onların gəlir və xərclər smetasını təsdiq edir. Şuranın sədri öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini, yaxud vəzifələrinin müvəqqəti icrasını müavinlərindən birinə həvalə edə bilər.

# KİYEVDƏ MÜHÜM TƏMASLAR



Xarici işlər naziri Ceyhun Bayramovun Ukraynaya səfərinin bir müddət öncə Rusiyaya reallaşan ziyarətindən sonraya təsadüf etməsi diqqət çəkir. Münaqişə tərəflərinin hər ikisinə edilən ziyarət Azərbaycanın problemə balanslı yanaşmasını nümayiş etdirir.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun Ukraynaya səfəri, Kiyevdə aparılan danışıqlar bu həftənin diqqət çəkən hadisələrindən oldu. C.Bayramov səfər çərçivəsində bir sıra ikitərəfli görüşlər keçirib, qarşılıqlı əməkdaşlığın genişləndirilməsi ilə bağlı müzakirələr aparıb.

## BAKININ PRİNSİPİAL MÖVQEYİ

Qeyd edək ki, Azərbaycan Ukrayna məsələsində özünün prinsipial mövqeyi ilə seçilir. Rəsmi Bakı Ukraynanın ərazi bütövlüyü və suverenliyinə birmənalı dəstəyini bəyan edir, həmçinin müharibənin tezliklə dayandırılması və diplomatik yolla həllin vacibliyini vurğulayır. Kiyevə səfər Ceyhun Bayramovun bir müddət öncə Rusiyaya reallaşan ziyarətindən sonraya təsadüf edib. Qısa müddət ərzində münaqişə tərəflərinin hər ikisinə edilən ziyarət Azərbaycanın xarici siyasət kursunun nə dərəcədə uğurlu olduğunu bir daha ortaya qoyur.



Belə ki, rəsmi Bakının Rusiya-Ukrayna müharibəsi ilə bağlı mövqeyi beynəlxalq hüququn prinsiplərinə əsaslanır. Digər tərəfdən Azərbaycan həm Rusiya, həm də Ukrayna ilə yaxşı münasibətlərə malikdir.

## DOSTLUQ VƏ QARŞILIQLI FAYDALI ƏMƏKDAŞLIQ PRİNSİPLƏRİ

Səfər zamanı C.Bayramov ukraynalı həmkarı Andrey Sibiqa ilə görüşüb. Ceyhun Bayramov görüşü iki ölkə arasında strateji tərəfdaşlığın inkişafı baxımından məhsuldar adlandırıb. "Ölkələrimizi dostluq və qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə əsaslanan strateji tərəfdaşlıq bağlayır", - Azərbaycanın XİN başçısı qeyd edib.

Andrey Sibiqa bildirib ki, Ukrayna Azərbaycanın onun suverenliyi və ərazi bütövlüyünə dəyişməz dəstəyini yüksək qiymətləndirir, eləcə də Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün dəstəklənməsinə sadiq qalır. Sibiqa həmçinin Rusiya-Ukrayna müharibəsinin ilk günlərindən göstərilən humanitar yardıma, xüsusilə Ukraynanın enerji dayanıqlığına dəstəyinə, eləcə də kritik infrastrukturun bərpasına verdiyi töhfəyə görə Azərbaycana təşəkkür edib.

## UKRAYNA PREZİDENTİ VOLODİMİR ZELENSKİ İLƏ GÖRÜŞ

Ceyhun Bayramov Ukraynaya rəsmi səfəri çərçivəsində bu ölkənin Prezidenti Volodimir Zelenski tərəfindən də qəbul edilib. Görüş zamanı, Azərbaycan ilə Ukrayna arasında strateji tərəfdaşlıq münasibətlərinin mövcud vəziyyəti və inkişaf perspektivləri, siyasi dialoq, enerji, nəqliyyat, humanitar əməkdaşlıq, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Azərbaycan ilə Ukrayna arasında dostluq və qarşılıqlı hörmətə əsaslanan strateji tərəfdaşlıq münasibətlərinin inkişafının önəmi vurğulanıb. Gələn il diplomatik münasibətlərin qurulmasının 35 illiyinin qeyd olunacağı, ötən dövr ərzində yüksək səviyyəli siyasi dialoqun və qarşılıqlı səfərlərin ikitərəfli əməkdaşlığın inkişafına mühüm töhfə verdiyi qeyd edilib. Azərbaycanın Ukraynanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünə ardıcıl dəstək verdiyi bir daha diqqətə çatdırılıb. Zelenski Ukraynaya humanitar dəstəyə görə Prezident İlham Əliyevə və Azərbaycan hökumətinə dərin minnətdarlığını bildirib.

Qeyd edək ki, Azərbaycanın Ukraynaya qaz ixracı imkanlarının nəzərdən keçirilməsi maraq doğurur. Ukrayna da öz növbəsində Azərbaycanın səylərini dəstəkləməklə Bakının prioritetlərini Avropanın təhlükəsizliyinə investisiya kimi qiymətləndirir.

# SÜLHƏ APARAN TARİXİ RAZILAŞMALAR

Tarixi Vaşinqton görüşündən sonra Azərbaycan və Ermənistan arasında real sülh mövcuddur. Hələlik tam rəsmi status qazanmasa da, mövcud vəziyyət həm Bakının, həm də İrəvanın maraqlarına cavab verir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az



Cənubi Qafqazda sülh gündəliyini rəsmiləşdirən tarixi Vaşinqton razılaşmalarının bir ili tamamlanır. 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ Prezidenti Donald Tramp və Ermənistan Baş naziri Nikol Paşinyanla görüşü çərçivəsində xarici işlər nazirləri Ceyhun Bayramovla Ararat Mirzoyan "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş" layihəsini paraflayıblar. Bununla da Azərbaycan və Ermənistan arasında de-fakto sülhün əsası qoyulub.

### UZAQGÖRƏN SİYASƏTİN MƏNTİQİ NƏTİCƏSİ

Beləliklə, 30 ildən artıq müddətdə davam edən, işğal, dağıntılar, on minlərlə insanın həyatını itirməsinə səbəb olan qanlı müharibə dövrü yerini rəsmən sülh dövrünə verməş oldu. Bu dövrün Azərbaycanın ərazi bütövlüyü, suverenliyinin tam bərpası, sərhədlərinin öncə işğalçı, daha sonra isə məğlub ölkə adını alan Ermənistan tərəfindən rəsmən tanınması ilə yekunlaşması Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi, diplomatik zəkası və uzaqgörən siyasətinin təntənəli qələbəsi idi. Tarix boyunca güclü sərkərdələr, dövlət xadimləri olsa da, onlardan çox az qismi əldə etdikləri zəfəri siyasi sülhə çevirməyi bacarıb. 44 günlük Vətən müharibəsi və bir günlük antiterror əməliyyatları ilə adını Azərbaycanın tarixinə qızıl hərflərlə yazdıran Müzəffər Ali Baş Komandan İlham Əliyev qısa zaman kəsiyində dünyanın ən güclü dövlətinin paytaxtında Vaşinqton bəyannaməsinə imza atmaqla bunu reallaşdırdı.

## VAŞİNQTON GÖRÜŞLƏRİ BAKININ DİPLOMATİK ZƏFƏRİ KİMİ

İşğal faktına son qoyan Azərbaycan tək döyüş meydanında qələbə qazanmadı. Eyni zamanda Cənubi Qafqazda şərtlərini özünün diktə etdiyi yeni geosiyasi reallıqlar yaratdı. Bir çoxları bu reallıqları ilk anda qəbul etmək istəməsə də, Prezident İlham Əliyevin dahiyanə strategiyası hər kəsi ölkəmizin mövqeyi, statusu ilə hesablaşmağa vadar etdi. 2025-ci ilin avqustunda imzalanan Vaşinqton bəyannaməsi isə bu strategiyanın pik həddi idi. Dünyanın super gücünün Azərbaycanın mövqeyini, milli maraqlarını, həmçinin Cənubi Qafqazdakı reallıqları, sülh gündəliyini qəbul etməsi, Azərbaycan və Ermənistan arasındakı sülh gündəliyinə Ağ Ev rəhbəri Donald Trampın da öz imzası ilə şahidlik etməsi rəsmi Bakının diplomatik zəfərinin göstəricisi idi.

### DONALD TRAMPIN SÜLHƏ TÖHFƏSİ

Prezident İlham Əliyev də 4-cü Qlobal Şuşa Media Forumunda çıxışında ABŞ-nin və Prezident Donald Trampın sülh prosesindəki rolunu yüksək dəyərləndirib. Dövlət başçısı qeyd edib ki, Prezident Trampın bu günə qədər və bugünkü yanaşması ilə ondan əvvəlki administrasiyaların siyasəti arasında çox ciddi fərq var idi. Belə ki, ATƏT-in Minsk qrupunun bütün fəaliyyəti münaqişənin həllinə deyil, işğalın sonsuz olmasına xidmət edirdi: "Prezident Trampın yanaşması isə tamamilə fərqli idi. O, sülhsevər, dünyanın müxtəlif bölgələrində sülhün bərqərar olunmasına çalışan bir liderdir. Özünün də qeyd etdiyi kimi, o, səkkiz münaqişənin həllinə töhfə verib. Bu, onun xarakterini, baxışlarını və siyasətini əks etdirir. Bizim məsələdə Prezident Trampın rolu Azərbaycan ilə Ermənistan arasında sülh sazişi üzrə danışıqların yekun mərhələsində xüsusilə mühüm oldu. Prezident Tramp və onun komandası bu prosesə qoşularaq elə bir çərçivə formalaşdırdılar ki, nəticədə sülh mümkün oldu".



## ZƏNGƏZUR DƏHLİZİ İLƏ BAĞLI PROSESLƏR SÜRƏTLƏNDİRİLİB

Vaşinqton görüşlərindən keçən bir il müddətində Azərbaycan və Ermənistan arasında sülh gündəliyi ilə bağlı çox ciddi addımlar atılıb. Öncə onu qeyd edək ki, ABŞ danışıqlarında əldə olunmuş razılaşmalar əsasında Zəngəzur dəhlizi ilə bağlı proseslər sürətləndirilib. Hansı ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa əlaqəni təmin edəcək. Bu addım həm də regional iqtisadi inteqrasiya, bağlantıların tam gücü ilə işə düşməsi istiqamətində müstəsna əhəmiyyətə malikdir. Azərbaycan rəhbərliyi sülh gündəliyinə sadiqliyini nümayiş etdirərək bağlantıların bərpası istiqamətində önləyici addımlar da atıb. İşğal faktına görə Ermənistana tətbiq edilən tranzit embarqosu ləğv edilib. Bu gün Ermənistan Azərbaycanın dəmiryolu vasitəsi ilə özünə lazım olan minlərlə ton məhsulu əldə etmək imkanı əldə edib. Digər tərəfdən, Azərbaycan Ermənistanın enerji təhlükəsizliyinə də ciddi töhfə verməkdədir. Hazırda Azərbaycan Gürcüstan vasitəsi ilə Ermənistana yanacaq məhsullarının ixracını həyata keçirir ki, indiki qeyri-sabit mühitdə bu, Ermənistan daxilində yanacaq məhsullarının qiymətlərinin sabit qalmasında, hətta 20 faizdən çox ucuzlaşmasında katalizator rolunu oynayır. Ən əsası isə, Vaşinqton görüşündən keçən müddətdə sərhəddə heç bir insident qeydə alınmayıb.

### QARŞILIQLI TƏMASLAR

İki ölkə arasında siyasi və digər təmaslar da intensiv xarakter alıb. İcraedici orqanların təmsilçiləri səviyyəsində qarşılıqlı səfərlər reallaşdırılır. Sərhədlərin delimitasiyası komissiyasının üzvlərinin görüşləri mütəmadi mahiyyət alıb. Həmçinin iki ölkə arasında etimad mühitinin gücləndirilməsi üçün qeyri-hökumət təşkilatları səviyyəsində qarşılıqlı səfərlər də reallaşır. Buraya parlament sədrləri və deputatlar səviyyəsində keçirilən görüşləri də əlavə edə bilərik.

Beləliklə, tarixi Vaşinqton görüşündən sonra Azərbaycan və Ermənistan arasında həqiqətən də sülh mövcuddur. Hələlik tam rəsmi status qazanmasa da, mövcud vəziyyət həm İrəvanın, həm də Bakının maraqlarına cavab verir. Bu prosesin məntiqi yekunu isə Vaşinqton Bəyannaməsi və orada əldə olunan razılaşmaların mahiyyətinə uyğun şəkildə Ermənistan tərəfindən ölkəmizə qarşı ərazi iddialarına birdəfəlik son qoyulmasını şərtləndirir.

# AZƏRBAYCAN GƏLƏCƏYİN ENERJİSİNİ AVROPAYA DAŞIYIR

Son illərdə Avropa İttifaqı ilə Azərbaycan arasında yaşıl enerji sahəsində əməkdaşlıqla bağlı ciddi müzakirələr aparılır. Ölkəmizin yaşıl enerjiyə yatırımları, potensial ixrac hədəfləri bu sahədə uğurlu əməkdaşlıq modelinin yaradıla biləcəyinə dair inamı artırır.

AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Avropa son yüz ilin ən isti yayını yaşayır. Köhnə qitə bu səbəbdən çox ciddi problemlərlə üzləşib. Ən çox narahatlıq yaradan məqamlardan biri isə elektrik enerjisi istehsalı sahəsində yaşanan çətinliklər, artan tələbatın qarşılana bilməməsidir. Macarıstanda enerji böhranı fonunda mağazalar və müəssisələr işıqlı lövhələri kütləvi şəkildə söndürməyə, kondisionerlərdən istifadəni məhdudlaşdırmağa və elektrik enerjisinə qənaət etmək üçün digər tədbirlər görməyə başlayıblar. Budapeşt böhran fonunda qonşu ölkələrdən elektrik enerjisi tədarük etməyə çalışır. Lakin digər ölkələrdə də vəziyyət ürəkaçan deyil.

### BU DƏFƏ ALTERNATİV ENERJİ İXRACATÇISI KİMİ

Belə bir durumda alternativ enerji mənbələrinin əhəmiyyəti, idxal coğrafiyasının genişləndirilməsi ciddi şəkildə müzakirə olunmaqdadır. Neft və qaz ixracı sahəsində etibarlı tərəfdaş statusu qazanan, bu sahədə artıq özünü yetərincə təsdiqləmiş Azərbaycanın adı yenidən gündəmə gətirilir. Bu dəfə isə ənənəvi yox, alternativ enerji ixracatçısı kimi. Qeyd edək ki, son illərdə Avropa İttifaqı ilə Azərbaycan arasında bu sahədə əməkdaşlıqla bağlı ciddi müzakirələr aparılır. Ölkəmizin yaşıl enerjiyə yatırımları, potensial ixrac hədəfləri bu sahədə uğurlu əməkdaşlıq modelinin yaradıla biləcəyinə dair inamı artırır.

### "XƏZƏR-QARA DƏNİZ-AVROPA YAŞIL ENERJİ DƏHLİZİ"

Məlum istiqamətdə ilkin ciddi addımlar da atılıb. Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan 2022-ci il dekabrın 17-də Buxarestdə yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş imzalayıblar. Tərəflərin iyul ayında Bakıda təşkil olunmuş son toplantısında "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsinin texniki-iqtisadi əsaslandırmasının artıq uğurla tamamlandığı, planlaşdırma mərhələsindən inkişaf və icra mərhələsinə keçildiyi rəsmən təsdiqlənib. Bu layihə iştirakçı ölkələrin ortaq siyasi iradəsinin, strateji tərəfdaşlığının və qarşılıqlı etimadının bariz nümunəsi kimi dəyərləndirilir. Xatırladaq ki, bu layihəyə Avropa İttifaqı da güclü dəstək nümayiş etdirir. Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin mövqeyi bu təşəbbüsün Avropanın enerji təhlükəsizliyi və yaşıl enerji keçidi baxımından strateji əhəmiyyətinin yüksək siyasi səviyyədə qəbul edildiyini göstərir.

### "AZƏRBAYCAN GƏLƏCƏYİN ENERJİSİNƏ SƏRMAYƏ YATIRIR"

Qeyd edək ki, bir müddət əvvəl Azərbaycanda səfərdə olan Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen "Azərbaycan gələcəyin enerjisinə sərmayə yatırır" deməklə təmsil etdiyi qurumun mövqeyini ortaya qoymuşdu. "Xəzər dənizində külək enerjisini istehsal etmək kimi planlarınız var. Sizin təmiz elektrik enerjisi qovşağına çevrilmək üçün həm planınız, həm potensialınız var. Bu da Avropa İttifaqının özünün təmiz enerjiyə keçid prosesi ilə tamamilə uzlaşır. Beləliklə biz bərpaolunan enerji mənbələri, elektrik enerjisinin qarşılıqlı nəqli və regional enerji şəbəkələri kimi sahələrdə əməkdaş-lığımızı dərinləş-dirmək üçün nəhəng potensialı görürük. Azərbaycanı Avropa İttifaqı ilə birləşdirən "Yaşıl Enerji Dəhlizi"ni qurmaq üçün planlarınızı alqışlayırıq", - deyə o bildirib.

Azərbaycan ali rəhbərliyinin uzaqgörən siyasəti gələcəyin strateji hədəfləri tək ölkəmizlə məhdudlaşmır, daha geniş coğrafiyanı əhatələmək məqsədi daşıyır. Burada Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə ortaq maraqlardan çıxış edərək yaşıl enerji sahəsində əməkdaşlıq niyyətləri xüsusi vurğulanmalıdır. Prezident İlham Əliyevin təşəbbüsünə əsasən hələ 2024-cü ildə Azərbaycan, Qazaxıstan və Özbəkistan dövlət başçılarının iştirakı ilə yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş imzalanıb. Sənəd Mərkəzi Asiyanın günəş və külək elektrik stansiyalarından alınan "təmiz" elektrik enerjisinin Azərbaycan ərazisindən keçməklə Avropaya nəqli perspektivlərini nəzərdə tutur. Sazişdə Xəzər dənizində qiymətləndirilən 500 QVt-dan çox külək enerjisinin Azərbaycan üzərindən Avropaya nəqli planlaşdırılır.



### ÖLKƏMİZİN YAŞIL ENERJİ POTENSİALI

Ölkəmizin potensialına və bu istiqamətdə atılan addımlara gəldikdə isə, statistik rəqəmlər Prezident İlham Əliyevin müəyyənləşdirdiyi yaşıl enerji hədəflərinin tamamilə real olduğunu göstərir. Belə ki, yaşıl enerji mənbələrinin texniki potensialı quruda 135 QVt, dənizdə 157 QVt-dır. İqtisadi potensial 27 QVt, o cümlədən, külək enerjisi üzrə 3 QVt, günəş enerjisi üzrə 23 QVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir. Bərpa olunan enerji mənbələri üzrə ölkəmizdə ümumi gücü 2070 MVt olan elektrik stansiyaları fəaliyyət göstərir. 2027-ci ilədək ümumi gücü 2 qiqavatdan çox olan yaşıl enerji layihələrinin reallaşdırılması nəzərdə tutulur. BƏƏ-nin "Masdar", Səudiyyə Ərəbistanının "ACWA Power" kimi dünyanın öndə gələn şirkətləri ilə birgə əməkdaşlıq bu sahədə mühüm nəticələrin əldə olunmasına imkan verir.

Bu istiqamətdə işğaldan azad edilmiş ərazilərin də potensialından geniş istifadə olunur. Prezidentin müvafiq sərəncamına uyğun olaraq həmin ərazilərdə yaşıl enerji zonaları yaradılır.

Ölkəmizin potensialını dünyaya ixrac üçün nəzərdə tutulan beynəlxalq layihələr də çoxşaxəliliyi ilə seçilir. Yuxarıda qeyd edilənlərdən əlavə, "Azərbaycan-Türkiyə-Avropa", "Azərbaycan-Gürcüstan-Türkiyə-Bolqarıstan" Yaşıl Enerji Dəhlizləri də xüsusi vurğulanmalıdır.

Beləliklə, Prezident İlham Əliyevin sözügedən sahədə müəyyənləşdirdiyi hədəflər və həyata keçirilən siyasət ölkəmizin beynəlxalq mövqelərini gücləndirməklə yanaşı, Avropanın da indiki çətinliklərin öhdəsindən gəlmək hədəflərinə mühüm töhfələr verəcək.

# AVROPANIN AFRİKA QAPISI

Bir çox miqrant üçün Seuta sadəcə keçid məntəqəsidir. Onların əsas məqsədi İspaniyanın materik hissəsinə, daha sonra isə Fransa, Almaniya, Niderland və digər Avropa ölkələrinə çatmaqdır.



AZƏR NURİYEV

Qeyri-qanuni miqrasiya axını Avropa İttifaqının (Aİ) son illərdə üzləşdiyi ən mürəkkəb problemlərdən biridir. Bu prosesdən ən çox zərər çəkən ölkələrdən biri də İspaniyadır. Seutadakı vəziyyət (İspaniyanın Mərakeşlə sərhədində yerləşən Şimali Afrika anklavı - müəl.) Aİ tarixində ən ağır miqrasiya böhranlarından birinə çevrilib.

### MİQRANTLAR ÜÇÜN ƏN YAXIN YOL

Coğrafi mövqeyinə görə Avropa ilə Afrika arasında əsas keçid nöqtələrindən biri hesab edilən İspaniya son dövrlərdə xüsusilə Qərbi Afrika marşrutu üzrə rekord sayda miqrant qəbul etmək məcburiyyətində qalıb. Atlantik okeanı vasitəsilə Kanar adalarına, eləcə də Aralıq dənizi üzərindən materikə yönələn miqrasiya axınları ölkənin sosial, iqtisadi və təhlükəsizlik sistemləri üçün ciddi çağırışlar yaradıb. İspaniyada miqrasiya problemi artıq yalnız humanitar məsələ kimi deyil, həm də daxili siyasətin, Aİ-nin sərhəd təhlükəsizliyinin və beynəlxalq münasibətlərin mühüm gündəm mövzularından biri kimi qiymətləndirilir. Seutaya gəldikdə, bölgə Şimali Afrikada yerləşsə də, İspaniyanın suveren ərazisi hesab olunan şəhərdir. Mərakeş ərazisi ilə əhatə olunan bu kiçik anklav Aİ-nin Afrikadakı yeganə quru sərhədlərindən biri kimi xüsusi geosiyasi əhəmiyyət daşıyır. Məhz bu mövqeyi Seutanı uzun illərdir qeyri-qanuni miqrasiya marşrutlarının əsas istiqamətlərindən birinə çevirib. Daha yaxşı həyat axtaran minlərlə insan üçün Seuta Avropa qitəsinə daxil olmağın ən yaxın yollarından biri hesab edilir. Bu səbəbdən şəhər həm humanitar böhranların, həm də sərhəd təhlükəsizliyi ilə bağlı müzakirələrin mərkəzində dayanır.

### MİQRASİYA AXINLARININ ƏSAS SƏBƏBLƏRİ

Seutaya yönələn miqrasiya axınının arxasında bir sıra mürəkkəb amillər dayanır. Afrika ölkələrinin bir hissəsində davam edən silahlı münaqişələr, siyasi qeyri-sabitlik, yoxsulluq, işsizlik, iqlim dəyişikliklərinin yaratdığı problemlər və sosial təminatın zəifliyi insanları Avropaya üz tutmağa vadar edir. Bir çox miqrant üçün Seuta sadəcə keçid məntəqəsidir.



## İSPANİYA-MƏRAKEŞ MÜNASİBƏTLƏRİNƏ TƏSİRİ

Miqrantların əsas məqsədi İspaniyanın materik hissəsinə, daha sonra isə Fransa, Almaniya, Niderland və digər Avropa ölkələrinə çatmaqdır. Son illərdə Seutada qeyri-qanuni keçid cəhdlərinin artması İspaniya hakimiyyətini sərhəd nəzarətini daha da gücləndirməyə məcbur edib. Sərhəd boyunca yüksək hasarlar, müşahidə sistemləri və əlavə təhlükəsizlik qüvvələri yerləşdirilib. Bununla yanaşı, miqrantların böyük hissəsi ağır şəraitdə yaşayır. Müvəqqəti qəbul mərkəzlərinin imkanları çox vaxt kifayət etmir, nəticədə sosial gərginlik və humanitar problemlər yaranır. Beynəlxalq humanitar təşkilatlar miqrantların hüquqlarının qorunmasının vacibliyini vurğulayaraq qəbul şəraitinin yaxşılaşdırılmasına çağırış edirlər.

Seutadakı vəziyyət təkcə miqrasiya məsələsi deyil, həm də İspaniya ilə Mərakeş arasında diplomatik münasibətlərə təsir göstərən mühüm faktordur. İki ölkə arasında əməkdaşlığın səviyyəsi sərhəd təhlükəsizliyinə və miqrasiya axınlarının idarə olunmasına birbaşa təsir edir. Ekspertlərin fikrincə, tərəflər arasında siyasi münasibətlərdə yaranan gərginliklər bəzən sərhəddə miqrasiya təzyiqinin artması ilə müşayiət olunur. Bu isə Seutanın geosiyasi əhəmiyyətini daha da artırır.

### Aİ LİDERLƏRİ NARAZIDIR

Vəziyyət o qədər gərginləşib ki, Aİ-nin 27 ölkəsindən 22-si Avropa Komissiyası və Aİ Şurasının rəhbərlərinə İspaniya hakimiyyətini tənqid edən məktub göndəriblər. "Politico" nəşri yazır ki, məktuba imza atanlar arasında Almaniya Kansleri Fridrix Mertz, İtaliya Baş naziri Corcia Meloni, Belçika, Niderland, Skandinaviya ölkələri, Baltikyanı ölkələr, Mərkəzi və Şərqi Avropa liderləri olublar. Onlar yaranmış vəziyyətin Aİ səviyyəsində müzakirə olunmasını tələb ediblər. Liderlər İspaniya hakimiyyətini miqrasiya şərtlərini yumşaltmağa görə qınayıblar. Onların fikrincə, Seutada yaşanan böhranı yaradan səbəblərdən biri də məhz bu addım olub. Məktubda deyilib ki, Aİ gərək qanunsuz miqrasiya ilə bağlı vahid siyasət yürütsün və sərt mübarizə aparsın. İspaniyaya qarşı məktuba Aİ-nin ən böyük iqtisadiyyatına sahib ölkələrindən yalnız Fransa imza atmayıb. ABŞ Prezidenti Donald Tramp miqrantların Mərakeşdən İspaniyaya qanunsuz daxil olmasını fəlakət və işğal kimi xarakterizə edib. "İspaniyada baş vermiş fəlakəti izlədim. Bu, yüz minlərlə insanın ölkəni işğal etməsinə bənzəyir", - Tramp deyib.



## BÖHRANIN HƏLLİ YOLLARI

Aİ Seutadakı vəziyyəti bütövlükdə Avropanın xarici sərhədlərinin təhlükəsizliyi kontekstində qiymətləndirir. Bir tərəfdən sərhədlərin qorunması, insan alveri şəbəkələrinə qarşı mübarizə və qeyri-qanuni miqrasiyanın qarşısının alınması prioritet hesab olunur. Digər tərəfdən isə beynəlxalq hüquq normalarına uyğun şəkildə sığınacaq axtaran şəxslərin hüquqlarının təmin edilməsinin vacibliyi vurğulanır.

Bu çərçivədə Aİ Afrika ölkələri ilə əməkdaşlığı genişləndirməyə, miqrasiyanın əsas səbəblərinin aradan qaldırılmasına yönəlmiş inkişaf layihələrini dəstəkləməyə və sərhəd idarəçiliyini gücləndirməyə çalışır. Mütəxəssislərin fikrincə, Seutadakı miqrant probleminin yalnız sərhəd nəzarətinin sərtləşdirilməsi ilə həll olunması mümkün deyil. Problemin kökündə duran sosial-iqtisadi və siyasi amillər aradan qaldırılmadıqca qeyri-qanuni miqrasiya cəhdlərinin davam edəcəyi ehtimalı yüksək olaraq qalır.

Uzunmüddətli həll yolu kimi Afrika ölkələrində iqtisadi inkişafın dəstəklənməsi, yeni məşğulluq imkanlarının yaradılması, regional sabitliyin möhkəmləndirilməsi və qanuni miqrasiya mexanizmlərinin təkmilləşdirilməsi göstərilir. Eyni zamanda, İspaniya, Mərakeş və Aİ arasında koordinasiyalı əməkdaşlığın gücləndirilməsi Seutadakı vəziyyətin idarə olunmasında həlledici rol oynaya bilər. Bu səbəbdən İspaniyada miqrant böhranı təkcə bu ölkənin deyil, bütövlükdə Aİ-nin qarşısında duran strateji problemlərdən biridir. Bu məsələ təkcə sərhəd təhlükəsizliyi ilə məhdudlaşmır, həm də humanitar məsuliyyət, regional əməkdaşlıq və beynəlxalq hüququn tətbiqini tələb edir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# QEYRİ-NEFT İXRACINA MÜHÜM DƏSTƏK

Qeyri-neft-qaz ixracının stimullaşdırılması məqsədilə tətbiq edilən yeni logistika dəstəyi mexanizmi ixracatçıların xərclərini azaltmağı hədəfləyir. Mütəxəssislər bu addımın ixrac potensialını gücləndirəcəyi qənaətindədirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

## "REAL NƏTİCƏLƏR 2027-Cİ İLDƏN GÖRÜNƏCƏK"

Prezident İlham Əliyevin müvafiq Fərmanına əsasən, Azərbaycan mənşəli qeyri-neft-qaz mallarına ixrac daşıma dəstəyi göstəriləcək. Yeni mexanizm çərçivəsində dəstəyin məbləği daşınmaya çəkilən və nağdsız qaydada ödənilən faktiki nəqliyyat xərcləri, həmçinin ixrac olunan məhsulun gömrük dəyəri əsasında hesablanacaq. Daşımanın dəmir yolu, hava, dəniz və ya Azərbaycanda qeydiyyata alınmış avtomobil nəqliyyatı ilə həyata keçirilməsi halında nəqliyyat xərclərinin 70 faizi, digər ölkələrdə qeydiyyata alınmış avtomobil nəqliyyatı ilə daşınma zamanı isə 50 faizi nəzərə alınacaq. Mexanizm 2026-cı il sentyabrın 1-dən 2036-cı il sentyabrın 30-dək həyata keçiriləcək. Bəs yeni dəstək mexanizmi qeyri-neft-qaz ixracının artımına real təsir göstərə biləcəkmi? Logistika xərclərinin subsidiyalaşdırılması ixracatçıların rəqabət qabiliyyətini nə dərəcədə artıracaq?

### "İKİQAT LOGİSTİKA XƏRCİ İXRACIN RƏQABƏT QABİLİYYƏTİNİ ZƏİFLƏDİR"

İqtisadçı Xalid Kərimlinin sözlərinə görə, Azərbaycanın ixracı bir neçə tranzit ölkənin ərazisindən keçdiyi üçün əlavə rüsumlar, sərhəddə gözləmələr və digər bürokratik maneələrlə üzləşir ki, bu da logistika xərclərini əhəmiyyətli dərəcədə artırır.

Onun sözlərinə görə, hazırda Azərbaycan sahibkarlarının qeyri-neft ixracında əsas hədəf bazarı MDB ölkələridir. Mövcud dəmir yolu əlaqələri bu bazarlara çıxışı qismən asanlaşdırsa da, daha uzaq və gəlirli bazarlara çıxış yüksək logistika xərcləri səbəbindən çətinləşir: "Yerli istehsalın maya dəyərinə logistika xərcləri ciddi təsir göstərir. Azərbaycanın əsas təbii xammalı neft və qaz olduğundan, qeyri-neft sektoru üçün zəruri metallar, meşə sənayesi məhsulları, tikinti materiallarının böyük hissəsi, eləcə də kənd təsərrüfatında istifadə olunan gübrə və dərman vasitələri xaricdən idxal edilir. Nəticədə istehsalçılar həm xammalı ölkəyə gətirərkən, həm də hazır məhsulu ixrac edərkən logistika xərcləri ilə üzləşirlər. Ölkədə ixracyönümlü iqtisadiyyatın formalaşmasına mane olan əsas amillərdən biri də məhz yüksək daşınma xərcləridir".

Ekspert hesab edir ki, dövlətin logistika xərclərinin 70 faizədək hissəsini subsidiyalaşdırması ixracın stimullaşdırılması istiqamətində mühüm addımdır: "Bununla belə, fərmanın tətbiqi üçün məhsul siyahılarının, hədəf ölkələrin və digər icra mexanizmlərinin hazırlanması müəyyən vaxt tələb etdiyindən, onun real iqtisadi təsirləri daha çox 2027-ci ildən hiss olunacaq. Bu müddətdə sahibkarların yeni bazarlar tapması, potensial müştərilərlə əməkdaşlıq qurması və ixrac prosesinə uyğunlaşması gözlənilir. Yeni dəstək mexanizminin tətbiqi nəticəsində 2027-ci ildən etibarən Azərbaycanın qeyri-neft ixracında həm yeni bazarlar, həm də yeni məhsul növləri üzrə artım müşahidə olunacaq".

### "TƏKCƏ LOGİSTİKA SUBSİDİYASI İXRACIN DAVAMLI ARTIMI ÜÇÜN KİFAYƏT DEYİL"

İqtisadçı Asif İbrahimovun fikrincə, logistika subsidiyası qeyri-neft ixracının stimullaşdırılması baxımından mühüm iqtisadi alətdir: "Bununla belə, ixracın davamlı artımına nail olmaq üçün təkcə daşınma xərclərinin subsidiyalaşdırılması kifayət deyil. Bununla yanaşı, istehsalın rəqabət qabiliyyəti yüksəldilməli, məhsullar beynəlxalq standartlara uyğunlaşdırılmalı, yeni bazarlara çıxış imkanları genişləndirilməli və ixracın maliyyələşdirilməsi mexanizmləri gücləndirilməlidir. Hazırda Azərbaycan ixracatçılarının əsas hədəf bazarı Rusiyadır. Halbuki, ABŞ və Avropa İttifaqı kimi böyük və yüksək gəlirli bazarlara çıxış yerli məhsulların daha yüksək qiymətə satılmasına imkan yarada bilər. Lakin bu istiqamətdə qanunvericilik, standartlaşdırma və sertifikatlaşdırma sahələrində ciddi maneələr mövcuddur. Azərbaycan hələ də əsasən GOST standartları ilə işləyir, halbuki inkişaf etmiş ölkələr beynəlxalq standartlar tələb edir. Bundan əlavə, ölkədə verilən sertifikatların xaricdə tanınmaması və akkreditasiya sahəsində mövcud problemlər ixrac potensialının tam reallaşmasına mane olur".

### "İSTEHSALÇILARIN YENİ BAZARLARA ÇIXIŞI ASANLAŞACAQ"

A.İbrahimov hesab edir ki, Prezident tərəfindən imzalanan və qeyri-neft-qaz məhsullarının ixracı zamanı daşınma xərclərinin subsidiyalaşdırılmasını nəzərdə tutan fərman ölkənin ixrac potensialının gücləndirilməsi istiqamətində mühüm addımdır: "Nəqliyyat xərclərinin 50-70 faizinin dövlət tərəfindən qarşılanması ixracatçıların logistika yükünü azaltmaqla yerli məhsulların beynəlxalq bazarlarda qiymət baxımından rəqabət qabiliyyətini artıracaq. Lakin sahibkarların uzunmüddətli perspektivdə dövlət dəstəyindən asılı vəziyyətdə qalmaması vacibdir. Elə dayanıqlı iqtisadi mühit formalaşdırılmalıdır ki, gələcəkdə subsidiya mexanizmi dayandırılsa belə, ixracatçılar fəaliyyətlərini problemsiz davam etdirə bilsinlər. Logistika xərcləri xüsusilə kənd təsərrüfatı və qida sənayesində əsas xərc elementlərindən biridir. Daşınma xərclərinin azalması istehsalçıların yeni bazarlara çıxışını asanlaşdıracaq, ixrac əməliyyatlarının rentabelliyini yüksəldəcək və sahibkarları daha uzaq bazarlara yönəlməyə həvəsləndirəcək. Ölkə rəhbərliyinin müəyyən etdiyi strateji hədəflər müasir tələblərə cavab versə də, bəzi sahələrdə, xüsusilə kənd təsərrüfatı və rəqəmsal transformasiya istiqamətlərində icra mexanizmlərinin təkmilləşdirilməsinə ehtiyac var".

### LOGİSTİKA İLƏ YANAŞI, DİGƏR SAHƏLƏR DƏ İNKİŞAF ETDİRİLMƏLİDİR

İqtisadçı bildirdi ki, logistika subsidiyası ilə yanaşı, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqi və beynəlxalq marketinq fəaliyyəti daha sistemli şəkildə həyata keçirilməlidir: "Yeni dəstək mexanizmi logistika sektorunun inkişafına da müsbət təsir göstərəcək. İxrac həcmlərinin artması yeni multimodal daşınma marşrutlarının formalaşmasına, tranzit imkanlarının genişlənməsinə və Azərbaycanın regional logistika mərkəzi kimi mövqeyinin möhkəmlənməsinə şərait yarada bilər. Daşınma xərclərinin subsidiyalaşdırılması mühüm iqtisadi təşviq olsa da, onun real nəticələri yalnız istehsal, logistika, maliyyə, sertifikatlaşdırma və xarici bazarlara çıxışı əhatə edən kompleks dövlət siyasəti ilə müşayiət olunduğu halda tam şəkildə özünü göstərəcək".





Asif İbrahimov

Xalid Kərimli

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# BENZİN İXRACATÇISINA ÇEVRİLƏ BİLƏRİKMİ?

Ölkənin neft emalı imkanlarını artırmaq, daha yüksək ekoloji standartlara cavab verən yanacaq istehsal etmək üçün yaxın gələcəkdə yeni neftayırma zavodunun tikintisi planlaşdırılır. Bəs yeni zavod istifadəyə verildikdən sonra Azərbaycan benzin ixracatçısına çevriləcəkmi?



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Azərbaycanda yaxın illərdə yeni neftayırma zavodunun tikintisi planlaşdırılır. Məqsəd ölkənin neft emalı imkanlarını artırmaq, daha yüksək ekoloji standartlara cavab verən yanacaq istehsal etmək və enerji təhlükəsizliyini gücləndirməkdir. İqtisadiyyat naziri Mikayıl Cabbarovun sözlərinə görə, layihənin 5-6 il ərzində tamamlanması nəzərdə tutulur və zavod təkcə maye yanacaq deyil, həm də yeni nəsil neft-kimya məhsulları istehsal edəcək.

Bəs yeni zavod istifadəyə verildikdən sonra Azərbaycan benzin ixracatçısına çevriləcəkmi?

Hazırda Azərbaycan yüksək oktanlı bəzi yanacaq növlərini idxal edir. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2026-cı ilin ilk rübündə ölkəyə 650,2 min ABŞ dolları dəyərində 530 ton "Aİ-98" markalı avtomobil benzini idxal olunub.

### "NEFT MƏHSULLARININ İXRACINDAN ƏLDƏ OLUNAN GƏLİRLƏR ARTACAQ"

İqtisadçı-ekspert Asif İbrahimov "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, yeni neftayırma zavodunun tikintisi Azərbaycanın enerji siyasətində strateji prioritetlərin dəyişdiyini göstərir: "Dünya enerji bazarında artıq əsas gəlir xam neftin satışından deyil, onun dərin emalından və yüksək əlavə dəyər yaradan məhsulların istehsalından formalaşır. Azərbaycan da bu istiqamətdə irəliləyir. Bu gün ölkənin əsas üstünlüyü xam neft hasil etməsidir. Lakin gələcəkdə rəqabət üstünlüyü neftin hansı səviyyədə emal olunması ilə müəyyənləşəcək. Çünki eyni həcmdə xam neftin satışından əldə olunan gəlirlə, həmin neftdən istehsal edilən benzin, dizel və neft-kimya məhsullarının satışından əldə olunan gəlir arasında ciddi fərq var. Yeni zavod nəzərdə tutulan texniki parametrlərlə istifadəyə verilərsə, Azərbaycanın benzin istehsalı daxili tələbatı tam ödəyə, eyni zamanda ixrac üçün əlavə resurs formalaşdıra bilər. Bu isə ölkənin enerji təhlükəsizliyini gücləndirməklə yanaşı, neft məhsullarının ixracından əldə olunan gəlirləri artıracaq".




## "İstehsal etmək" hələ "ixrac etmək" demək deyil"

Ekspert hesab edir ki, yeni zavodun istifadəyə verilməsi ixrac üçün imkanlar yaratsa da, regional bazarlarda rəqabət üstünlüyü qazanmaq asan olmayacaq: "Bazar heç kimi gözləmir. Regionda Rusiya, Qazaxıstan və digər iri istehsalçılar artıq fəaliyyət göstərir. Ona görə də "istehsal edə bilmək" avtomatik olaraq "ixrac edə bilmək" deyil . İxrac bazarında uğur məhsulun keyfiyyətindən, maya dəyərindən, logistika xərclərindən və uzunmüddətli satış müqavilələrinin bağlanmasından asılıdır. Azərbaycanın üstünlüyü də məhz bu istiqamətlərdə formalaşa bilər. Ölkə Şərqlə Qərbi birləşdirən Orta Dəhliz üzərində yerləşir, müasir liman və dəmir yolu infrastrukturuna malikdir, eyni zamanda beynəlxalq enerji bazarında etibarlı tərəfdaş kimi tanınır. Bu amillər məhsulun regional bazarlara daha operativ və aşağı logistika xərcləri ilə çatdırılmasına imkan yaradır. Potensial ixrac bazarları sırasında ilk növbədə Gürcüstan və Türkiyə yer alır. Bununla yanaşı, Qara dəniz hövzəsi ölkələri, müəyyən hallarda isə Mərkəzi Asiya bazarları da perspektivli istiqamətlər hesab oluna bilər. Lakin məqsəd yalnız benzin ixracı olmamalıdır. Ən yüksək gəlir marjası neft-kimya məhsullarında formalaşır. Buna görə də yeni zavodun təkcə yanacaq deyil, həm də polimerlər, kimya sənayesi üçün xammal və digər yüksək əlavə dəyərli məhsullar istehsal etməsi layihənin iqtisadi səmərəliliyini əhəmiyyətli dərəcədə artıracaq".



Zəfər Vəliyev

## "Bu, hər barel neftdən daha yüksək iqtisadi gəlir əldə etməyə imkan verəcək"

Mütəxəssis bildirir ki, bu layihə Azərbaycanın xarici ticarət strukturuna da təsir göstərəcək: "Əgər bu gün ixracın əsas hissəsini xam neft təşkil edirsə, gələcəkdə emal olunmuş məhsulların payı arta bilər. Bu isə ixrac gəlirlərinin daha dayanıqlı olmasına və dünya bazarında xam neft qiymətlərinin dəyişməsindən yaranan risklərin müəyyən qədər azalmasına xidmət edəcək. Yeni neftayırma zavodunun əsas iqtisadi əhəmiyyəti də məhz bundadır. Söhbət təkcə əlavə benzin istehsalından deyil, əlavə dəyərin ölkə daxilində yaradılmasından və enerji sektorunun daha rəqabətli modelə keçidindən gedir. Əgər layihə planlaşdırılan müddətdə və nəzərdə tutulan texnoloji göstəricilərlə həyata keçirilərsə, 2030-cu illərin əvvəllərində Azərbaycan təkcə xam neft ixrac edən ölkə kimi deyil, həm də yüksək keyfiyyətli neft və neft-kimya məhsulları ixrac edən regional istehsal mərkəzlərindən biri kimi mövqeyini gücləndirə bilər".

### "ZAVOD TEXNOLOJİ, EKOLOJİ VƏ İQTİSADİ TƏLƏBLƏRƏ CAVAB VERMƏLİDİR"

Enerji məsələləri üzrə ekspert Zəfər Vəliyev qeyd edir ki, müasir neft emalı zavodları yalnız yanacaq istehsalı ilə məhdudlaşmır, eyni zamanda enerji təhlükəsizliyinin və neft-kimya sənayesinin inkişafında mühüm rol oynayır: "Qlobal enerji keçidi şəraitində neft emalı zavodlarının gələcəyi ənənəvi yanacaq istehsalından daha qabaqcıl neft-kimya emalına, enerji səmərəliliyinin artırılmasına və karbon izinin azaldılmasına doğru dəyişir".

Ekspert qeyd edir ki, tikiləcək yeni neft emalı zavodu təhlükəsizliyi və səmərəliliyi təmin etmək üçün ciddi texnoloji, ekoloji, iqtisadi və tənzimləyici tələblərə cavab verməlidir: "Əsas meyarlara yüksək neft emalı dərinliyi (90-94 faizdən çox), istehsal olunan yanacaqların ekoloji standartlara, məsələn, "Euro-5" və daha yüksək tələblərə uyğunluğu, həmçinin avtomatlaşdırma və ətraf mühitin mühafizəsi sistemlərinin tətbiqi daxildir. Bu şərtlərə cavab verən yeni emal gücü ölkənin yanacaq təminatını yaxşılaşdırmaqla yanaşı, SOCAR-ın Türkiyə və İtaliyadakı aktivləri ilə birlikdə regional bazarlarda - Cənubi Qafqaz, Qara dəniz və Aralıq dənizi hövzələrində bazar payını artırmasına imkan yarada bilər".

# EYNİ OFİSDƏ FƏRQLİ İŞ SAATLARI

Ölkəmizdə beynəlxalq təcrübə əsasında çevik iş vaxtı rejimi modelinin formalaşdırılması nəzərdə tutulur. Yeni qaydalar təkcə nəqliyyat sıxlığını seyrəltməyi deyil, həm də illərdir formalaşmış klassik əmək mədəniyyətini kökündən yeniləməyi hədəfləyir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Hər gün səhər saat 08:30-da Bakı küçələrində eyni mənzərə təkrarlanır. Nəqliyyatın hərəkəti iflic olur, avtobus və metrolarda addım atmağa yer qalmır, maşınların siqnal səsləri isə şəhərin əsas ritminə çevrilir. İşə gecikənlər, ictimai nəqliyyata minə bilməməyin gərginliyi, hər gün nəqliyyatlardakı aqressiv davalar... Səbəb hər kəsə məlumdur. On minlərlə insan eyni dəqiqələrdə, eyni vaxt çərçivəsində iş yerinə, məktəbə, universitetə çatmağa çalışır. Bu gərginlik, xaos nəhayət tarixə qovuşa bilər.

Belə ki, "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı"nda ölkəmizdə beynəlxalq təcrübə əsasında çevik iş vaxtı rejimi modelinin formalaşdırılması nəzərdə tutulur. Beynəlxalq Əmək Təşkilatının (BƏT) və digər qabaqcıl beynəlxalq təcrübələrə əsasən, çevik iş vaxtı rejimi işçiyə müəyyən edilmiş ümumi iş vaxtı normasını (həftəlik 40 saat) qorumaq şərti ilə iş gününün başlanma və bitmə vaxtını müəyyən çərçivələr daxilində sərbəst seçmək imkanı verən iş təşkili formasıdır. Bu model əmək münasibətlərində çevikliyin artırılmasına, iş və şəxsi həyat arasında tarazlığın təmin edilməsinə, həmçinin əmək məhsuldarlığının yüksəldilməsinə xidmət edir. Yeni qaydalar təkcə nəqliyyat sıxlığını seyrəltməyi deyil, həm də illərdir formalaşmış klassik əmək mədəniyyətini kökündən yeniləməyi hədəfləyir.

## 09:00-18:00 STEREOTİPİ QIRILIR?

Əgər əvvəllər iş saatlarının dəyişdirilməsi dedikdə yalnız müxtəlif dövlət qurumlarının işə başlama saatlarının diferensiallaşdırılması (məsələn, bir nazirliyin 08:00-da, digərinin 09:00-da başlaması) nəzərdə tutulurdusa, yeni model daha fərdi və modern yanaşma təklif edir. Artıq eyni idarə, təşkilat və ya şirkət daxilində çalışan işçilərin işə başlama saatları fərqləndiriləcək. Yəni eyni şöbədə yan-yana əyləşən iki həmkardan biri öz şəxsi və bioloji ritminə uyğun olaraq işə saat 08:00-da gəlib 17:00-da çıxacaqsa, digəri 10:00-da gəlib 19:00-da işini yekunlaşdıracaq.

İnsan Resursları (HR) üzrə mütəxəssis İlkin Mirzəzadə deyir ki, iş saatlarının dəyişdirilməsi idarəetmə müstəvisində böyük imkanlar açsa da, bu prosesin uğuru düzgün tənzimləmədən asılıdır: "Xüsusilə dövlət orqanlarında və iri özəl şirkətlərdə bu sistemin tətbiqi həm şəhərdəki nəqliyyat yükünün azalmasına, həm də işçilərin produktivliyinə birbaşa müsbət təsir göstərəcək. Tıxacda saatlarla vaxt itirən işçinin enerjisi işə çatana qədər tükənir. Tıxacların azalması fonunda işçilər daha az streslə ofisə gəlir ki, bu da birbaşa məhsuldarlığı və işçi məmnuniyyətini artırır. İşçi məmnuniyyətini maksimuma çatdırmaq üçün çevik qrafiklə yanaşı, hibrid iş modelinin (bəzi günlər evdən, bəzi günlər ofisdən) tərtib olunması daha məqsədəuyğundur. Texniki baxımdan burada ciddi bir çətinlik yoxdur, dövlət orqanları və özəl şirkətlər bu keçidə hazır ola bilər".




## "BƏZİ SAHƏLƏRDƏ ÇEVİK İŞ QRAFİKİ MÜMKÜN DEYİL"

Mütəxəssis vurğulayır ki, çevik iş vaxtı bütün sektorlara şamil edilə bilməz: "Ofis, inzibati və masaarxası işlərdə fərqli qrafiklərin tətbiqi tam realdır. Lakin istehsalat, satış və müştəri xidmətləri kimi sahələrdə çevik qrafik qurmaq demək olar ki, imkansızdır".

Mütəxəssis bildirir ki, vahid qrafikdən fərqli saatlara keçid zamanı əmək müqavilələrinə hüquqi dəyişikliklərin edilməsi, iş vaxtının uçotu sistemlərinin (giriş-çıxış kartları və davamiyyət proqramları) yenidən tənzimlənməsi tələb olunacaq. Böyük işçi heyətinə sahib olan şirkətlər bu keçiddə nisbətən çətinlik çəkə bilər.

## ÇEVİK QRAFİK MODELİ DÜNYA TƏCRÜBƏSİNDƏ YENİ DEYİL




İş saatlarının diferensiallaşdırılması və çevik qrafik modeli dünya təcrübəsində yeni deyil. Böyük meqapolislərdə nəqliyyat yükünü azaltmaq və işçi effektivliyini qaldırmaq üçün bu sistem illərdir tətbiq olunur. Məsələn, dünyanın ən sıx meqapolislərindən olan Yaponiyada Tokio Bələdiyyəsi tıxaclara və metrodakı basabasa qarşı rəsmi "Smooth Biz" dövlət strategiyasını həyata keçirir. Şirkətlər və dövlət idarələri işçilərin işə gəlişini 3 fərqli saat dalğasına bölür. Nəticədə pik saatlarda nəqliyyat sisteminə düşən dözülməz yük nəzərəçarpan dərəcədə azalır. Almaniyada "Gleitzeit" (sürüşkən iş vaxtı) sistemi geniş yayılıb. Şirkətlər işçilər üçün mütləq olan "nüvə saatları" (məsələn, 10:00-14:00) müəyyən edir.



## "TIXAC STRESİ BİTƏNDƏ EMOSİONAL TÜKƏNMƏ DƏ AZALIR"

İnsan faktoru olan yerdə məsələ yalnız hüquqi və texniki tərəfi həll etməklə bitmir. Bəs saatların sürüşdürülməsi işçinin daxili dünyasına, günün sonundakı əhvalına necə təsir göstərəcək?

Psixoloq Aysel Qafarova bildirir ki, iş saatlarının fərdi ehtiyaclara uyğunlaşdırılması işçilərin psixoloji rifahına müsbət təsir göstərir: "Düzgün tətbiq olunduqda çevik iş qrafiki ailə, şəxsi həyat və iş arasındakı balansı qorumaq üçün ən effekti alətə çevrilir. Vaxtın idarə olunmasında (Time management) ilk qayda məhz resursların düzgün bölünməsidir. Səhər saatlarında tıxacda itirilən hər dəqiqə insanda stres və narahatlıq səviyyəsini qaldırır. İşçi artıq masa arxasına əyləşəndə yorulmuş olur. İş saatlarının fərdi ehtiyaclara və bioloji ritmə uyğunlaşdırılması emosional tükənmişlik (burnout) riskini dəfələrlə azaldır".

### NAHAR, ÇAY, YUXU FASİLƏSİ

Psixoloq bildirir ki, beynəlxalq təcrübədə xalqların milli və psixoloji xüsusiyyətləri nəzərə alınaraq iş rejimi təyin olunur. Məsələn, Yaponiyada iş vaxtı bölünərkən təkcə nahar və ya çay fasiləsi deyil, işçilərin enerjisini bərpa etməsi üçün rəsmi yuxu fasilələri də qrafikə daxil edilir: "Amma "çeviklik" anlayışı xaosla səhv salınmamalıdır. Daimi və proqnozlaşdırıla bilinməyən ani dəyişikliklər insanda adaptasiya dövrünə qədər yuxu, qidalanma pozuntularına və gərginliyə səbəb ola bilər. Çünki planlaşdırılmış və eyni tərzdə işləmə psixoloji hazırlığın və stresə davamlılığı tənzimləyir. Tez-tez dəyişən iş qrafiki gündəlik rutinin pozulmasına, diqqətin azalmasına, gərginliyə, şəxsiyyətlərarası münasibətlərdə problemlərə səbəb olur. Biz bunu ən çox növbəli işləyənlərdə və bir neçə işdə çalışan insanlarda daha çox müşahidə edirik. Bu səbəbdən qrafik çevik olsa da, müəyyən sabitlik və proqnozlaşdırılma mütləq saxlanılmalıdır".

Psixoloji baxımdan yeni sistemin müsbət nəticə verməsi üçün müəyyən amillərin nəzərə alınması vacibdir. Həmsöhbətimiz vurğulayır ki, ilk növbədə əməkdaşlar üçün kifayət qədər istirahət və bərpa vaxtı təmin olunmalı, mümkün qədər sabit və proqnozlaşdırıla bilən iş qrafiki qurulmalıdır. Bununla yanaşı, hər bir işçinin yaş, sağlamlıq vəziyyəti, ailə məsuliyyətləri və bioloji ritm kimi fərdi xüsusiyyətləri diqqət mərkəzində saxlanılmalı, iş yükü ədalətli və balanslı şəkildə bölüşdürülməlidir.



# KASKODA YENİ DÖVR

Yaxın vaxtlarda Kasko sığortası ilə bağlı yeniliklər tətbiq olunacaq. Dəyişikliklər beynəlxalq sığorta prinsiplərinə uyğunlaşmanı, tərəflərin hüquq və öhdəliklərinin daha aydın müəyyənləşdirilməsini, eləcə də istehlakçı məmnuniyyətinin artırılmasını nəzərdə tutur.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Azərbaycanda avtonəqliyyat vasitələrinin könüllü (Kasko) sığortası üzrə yeni yanaşmalar tətbiq ediləcək. Bununla bağlı danışan Azərbaycan Mərkəzi Bankının (AMB) sədrinin birinci müavini Əliyar Məmmədyarov bildirib ki, nəzərdə tutulan dəyişikliklər beynəlxalq sığorta prinsiplərinə uyğunlaşmanı, tərəflərin hüquq və öhdəliklərinin daha aydın müəyyənləşdirilməsini, eləcə də istehlakçı məmnuniyyətinin artırılmasını təmin edəcək. AMB rəsmisinin sözlərinə görə, sığorta bazarında aparılan təkmilləşdirmələr sektorun dayanıqlığının artırılmasına yönəlib.

Digər tərəfdən, son dövrlərdə Kasko sığortasının qiymətlərində artım müşahidə olunur ki, bu da sürücülər arasında suallar doğurur.

Maraqlıdır, bu dəyişikliklər hansı zərurətdən irəli gəlir və sığorta bazarına necə təsir göstərəcək?

### OPERATİV, RAHAT, ETİBARLI...

Azərbaycan Sığortaçılar Assosiasiyasının ekspert qrupunun üzvü Emil Ağabağırov "Kaspi" qəzetinə açıqlamasında bildirib ki, Kasko sığortası ilə bağlı nəzərdə tutulan yeniliklər əsasən beynəlxalq təcrübəyə əsaslanır. Onun sözlərinə görə, bu dəyişikliklər yerli sığorta bazarının ümumi inkişafına da töhfə verəcək: "Çünki həm ümumi sığorta bazarının, həm də xüsusilə könüllü sığortanın inkişafında Kasko sığortası əhəmiyyətli rol oynayır. Avtomobillərin daim hərəkətdə olması və nəticə etibarilə mütəmadi olaraq risklərlə üzləşməsi bu sığorta növünə marağı daha da artırır. Yeniliklərdən biri də vətəndaşların Kaskonu daha təkmil texnologiyalar və mobil tətbiqlər vasitəsilə operativ, rahat və etibarlı şəkildə əldə etmələrinin təmin olunmasıdır".



Emil Ağabağırov

### "BAHALAŞMA YENİ NƏSİL AVTOMOBİLLƏRLƏ ƏLAQƏLİDİR"

Kasko sığortasının qiymətlərində müşahidə olunan artıma gəlincə isə, ekspert bildirir ki, bu, yeni nəsil avtomobillərlə əlaqədardır: "Ölkəyə xüsusilə keçən ildən etibarən gətirilən yeni nəsil avtomobillərin ikinci əl ehtiyat hissələrinin olmaması, istər hibrid, istər plagin-hibrid və yaxud elektromobil avtomobillərin qiymətlərinin 20 min manatdan yuxarı olması faktı Kasko sığortasındakı qiymətlərə də bu və ya digər formada təsir göstərir. Çünki daha əvvəlki illərdə xüsusilə 15-20 min manat aralığında olan avtomobillər Kasko sığorta məhsulunu əldə edirdi. Amma bu gün yeni nəsil avtomobillər olduğu üçün həm ehtiyat hissələri, həm də bazar qiymətləri nisbətən yuxarıdır. Amma bu o demək deyil ki, Kasko vətəndaşlar üçün əlçatan olmayacaq. Bu gün vətəndaşlarımız bu məhsulu sığorta şirkətlərindən hissəvi ödənişlərlə də əldə edə bilirlər. Gələcəkdə bu istiqamətdə mikro-sığorta mexanizminin tətbiq olunması nəticəsində az gəlirli əhali də eyni risk təminatlarından yararlanmaqla bu sığorta məhsulunu daha aşağı sığorta haqqı ödəməklə əldə edə biləcək".




## BAHALAŞAN EHTİYAT HİSSƏLƏRİ, ARTAN TƏMİR XƏRCLƏRİ

Nəqliyyat eksperti Adil Nəbiyev hesab edir ki, Kasko sığortasının qiymətlərində son dövrdə müşahidə olunan artımın əsas səbəblərindən biri avtomobillərin və ehtiyat hissələrinin bahalaşması, təmir xərclərinin artması, xüsusilə yeni nəsil hibrid və elektrik avtomobillərinin təmirinin daha baha başa gəlməsidir: "Valyuta məzənnələri, inflyasiya, servis xidmətlərinin qiymətlərinin yüksəlməsi və qəza nəticəsində ödənilən sığorta ödənişlərinin artması da tariflərə birbaşa təsir göstərir. Digər tərəfdən, avtomobil parkının yenilənməsi və daha yüksək dəyərə malik nəqliyyat vasitələrinin sayının artması sığorta şirkətlərinin risklərini yüksəltdiyi üçün Kasko haqlarında artım müşahidə olunur".

### SÜRÜCÜLƏRİN ƏN ÇOX QARŞILAŞDIĞI PROBLEMLƏR

Nəqliyyat eksperti qeyd edir ki, AMB-nin planlaşdırdığı yeni yanaşmalar bazarın daha şəffaf və beynəlxalq standartlara uyğun fəaliyyət göstərməsinə xidmət edə bilər: "Risklərin daha dəqiq qiymətləndirilməsi, müqavilə şərtlərinin daha aydın müəyyənləşdirilməsi, müştərilərin məlumatlandırılmasının gücləndirilməsi və sığorta məhsullarının standartlaşdırılması həm istehlakçı hüquqlarının qorunmasına, həm də sığorta bazarında etimadın artmasına müsbət təsir göstərə bilər. Eyni zamanda, fərdi riskə əsaslanan qiymət formalaşması təhlükəsiz sürücülər üçün daha əlverişli tariflərin yaranmasına imkan verəcək.

Hazırda sürücülərin ən çox qarşılaşdığı problemlərdən biri müqavilə şərtlərini tam anlamadan Kasko əldə etmələri, hansı risklərin sığortaya daxil olub-olmadığını bilməmələri, bəzi hallarda ödənişdən imtina səbəbləri ilə bağlı narazılıqların yaranması və zərərin qiymətləndirilməsi prosesinin uzun çəkməsidir".

## "UCUZ KASKO SƏRFƏLİ SEÇİM DEMƏK DEYİL"

Ekspert bildirir ki, amortizasiya tətbiqi, orijinal və ya alternativ ehtiyat hissələrinin istifadəsi, franchise (özpayı) şərtləri və təmir servisinin seçimi də mübahisə yaradan məsələlərdəndir. Yeni yanaşmalar bu sahədə şəffaflığı artırarsa, standart müqavilələr və daha aydın qaydalar tətbiq olunarsa, bu problemlərin əhəmiyyətli hissəsinin azalacağı gözlənilir.

Mütəxəssis vurğulayır ki, sürücülər Kasko sığortası seçərkən yalnız qiymətə deyil, həm də təminatın əhatə dairəsinə diqqət yetirməlidirlər: "Müqavilədə hansı risklərin sığortalandığı, "franchise" məbləğini, ödənişdən imtina hallarını, avtomobilin hansı servisdə təmir ediləcəyini, orijinal ehtiyat hissələrinin istifadə olunub-olunmayacağını, ərazi məhdudiyyətlərini, əvəzləyici avtomobil xidmətinin olub-olmadığını və zərərin ödənilməsi müddətlərini əvvəlcədən dəqiqləşdirmək vacibdir. Ucuz Kasko hər zaman daha sərfəli seçim demək deyil. Əsas məsələ qəza baş verdikdə sığorta müqaviləsinin sürücünü real şəkildə qoruması və vəd olunan təminatın praktikada da tam icra edilməsidir".



Adil Nəbiyev

# ARDNF QLOBAL ENERJİ PORTFELİNİ GENİŞLƏNDİRİR

“Inkia Energy” hidroelektrik, təbii qaz, Günəş və külək enerjisi aktivlərindən ibarət şaxələndirilmiş portfelə malikdir. Şirkətin ümumi effektiv istehsal gücü 2,6 QVt təşkil edir və Peru üzrə elektrik enerjisi istehsalının təxminən 22 faizini təmin edir.



Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) qlobal infrastruktur investisiyaları üzrə dünyanın aparıcı şirkətlərindən biri olan “I Squared Capital” (“I Squared”) ilə tərəfdaşlıq çərçivəsində Perunun ən böyük müstəqil elektrik enerjisi istehsalçısı olan “Inkia Energy” şirkətinə investisiya edib.

Fonddan verilən məlumata görə, 2026-cı ilin fevral ayında Kanadanın pensiya fondu olan “Canada Pension Plan Investment Board” (“CPPIB”) “Inkia Energy” şirkətinin 50 faiz payını “I Squared”dən əldə edib. Qalan 50 faiz pay isə ARDNF-nin də iştirak etdiyi və “I Squared” tərəfindən idarə olunan investisiya strukturu vasitəsilə satın alınıb.

### “INKİA ENERGY” ŞAXƏLƏNDİRİLMİŞ PORTFELƏ MALİKDİR

“Inkia Energy” hidroelektrik, təbii qaz, Günəş və külək enerjisi aktivlərindən ibarət şaxələndirilmiş portfelə malikdir. Şirkətin ümumi effektiv istehsal gücü 2,6 QVt təşkil edir və Peru üzrə elektrik enerjisi istehsalının təxminən 22 faizini təmin edir. Bununla yanaşı, şirkət əsasən bərpa olunan enerji layihələrini əhatə edən 4 QVt-dan artıq inkişaf portfelinə malikdir və uzunmüddətli perspektivdə bu istiqamətdə fəaliyyətini genişləndirməyi strateji prioritet kimi müəyyən edib.

### PERUNUN ENERJİ SEKTORUNUN APARICI İŞTİRAKÇILARINDAN BİRİ

“Inkia Energy” Perunun enerji sektorunun aparıcı iştirakçılarından biri olmaqla, yüksək əməliyyat göstəricilərinə malikdir. Sözügedən investisiya ARDNF-in uzunmüddətli investisiya strategiyasına uyğun olaraq, Fondun coğrafi diversifikasiyasını Latın Amerikası regionu istiqamətində genişləndirir və güclü fundamental göstəricilərə, eləcə də əlverişli risk-gəlirlilik profilinə malik elektrik enerjisi istehsalı sektorunda dayanıqlı aktivlər üzrə investisiya portfelini gücləndirir.

### ARDNF HAQQINDA

1999-cu ildə təsis edilmiş ARDNF ölkənin neft və qaz gəlirlərinin toplanması və səmərəli idarə olunmasını təmin edən suveren sərvət fondudur. Fondun əsas məqsədi əldə olunan gəlirlərin uzunmüddətli və dayanıqlı şəkildə idarə olunaraq gələcək nəsillər üçün qorunması və artırılmasıdır. Hazırda məcmu aktivlərinin həcmi 70 milyard dollardan çox olan ARDNF borc öhdəlikləri və pul bazarı alətləri, səhmlər, qızıl, daşınmaz əmlak və infrastruktur kimi müxtəlif sahələri əhatə edən, qlobal miqyasda geniş diversifikasiya olunmuş investisiya strategiyası həyata keçirir.



### “I SQUARED CAPİTAL” HAQQINDA

“I Squared Capital” orta bazar seqmentinə yönəlmiş aparıcı müstəqil qlobal infrastruktur investoru olmaqla, idarəetməsində 60 milyard dollardan artıq həcmdə aktivə malikdir. 2012-ci ildə təsis edilmiş şirkət bu gün enerji və kommunal xidmətlər, nəqliyyat və logistika, rəqəmsal ekoloji və sosial infrastruktursahələrini əhatə edən geniş investisiya portfeli ilə dünyanın ən şaxələndirilmiş infrastruktur investorlarından biri kimi fəaliyyət göstərir. Şirkətin investisiyaları dünya üzrə milyonlarla insan üçün mühüm əhəmiyyət daşıyan infrastruktur xidmətlərinin göstərilməsinə töhfə verir.

Hazırda “I Squared Capital”ın investisiya portfelinə 70-dən çox ölkədə fəaliyyət göstərən 100-dən artıq şirkət daxildir. Şirkətin baş ofisi ABŞ-nin Mayami şəhərində yerləşir, Əbu-Dabi, London, Münhen, Nyu-Dehli, San-Paulu, Sinqapur, Sidney və Taybey şəhərlərində isə şirkətin nümayəndəlikləri fəaliyyət göstərir.



# SOCAR-a verilən səmt qazı artıb

Bu ilin yanvar-iyun aylarında Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlar blokundan Azərbaycan Dövlət Neft Şirkətinə (SOCAR) əsas etibarilə Səngəçal terminalı, eləcə də “Neft Daşları”ndakı qurğu vasitəsilə sutkada orta hesabla 11 milyon kubmetr səmt qazı ötürülüb. “Report” “bp-Azerbaijan” şirkətinə istinadən xəbər verir ki, ümumilikdə hesabat müddəti ərzində SOCAR-a 2 milyard kubmetr səmt qazı təhvil verilib.

Bu ilin ilk altı ayında SOCAR-a verilən səmt qazının miqdarı 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,5 milyard kubmetr, yəni 33,3 % çox olub. Qeyd olunub ki, hasil olunan səmt qazının qalan hissəsi layda təzyiqi qorumaq məqsədilə yenidən kollektora vurulub.

Xatırladaq ki, AÇG yataqlar blokunun birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsinə dair saziş (PSA) 1994-cü il sentyabrın 20-də imzalanıb. 1995-ci ilin fevralında ABƏŞ təsis edilib. 2017-ci il sentyabrın 14-də isə həmin yataqların birgə istismarı və hasilatın pay bölgüsünə dair yenilənmiş saziş imzalanıb. Bu müqavilə yataqların 2049-cu ilin sonunadək işlənməsini nəzərdə tutur. AÇG-də pay sahibləri bunlardır: BP (30,37 %), SOCAR (35,3 %), MOL (9,57%) INPEX (9,31 %), “ExxonMobil” (6,79 %), TPAO (5,73 %), “ONGC Videsh Limited” (OVL) (2,92 %).

Kaspi

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Samirə Əliyeva**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 1028
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# İKİ İL TƏHSİL, YOXSA İŞ TƏCRÜBƏSİ?



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

**Magistr pilləsi üzrə dörd minə yaxın qəbul planı yerinin boş qalması müzakirələrə yol açıb. Ekspertlər bunu gənclərin təhsil və iş baxışlarının dəyişməsi, həm də klassik magistratura modelinə marağın azalması ilə izah edirlər.**

Dövlət İmtahan Mərkəzinin (DİM) elan etdiyi magistraturaya qəbul nəticələrinə görə dörd minə yaxın plan yeri boş qalıb. Rəqəmlər magistratura təhsilinə marağın səviyyəsini və əmək bazarındakı dəyərinin yenidən qiymətləndirilməsinə ehtiyac olduğunu göstərir.

Ekspertlər də hesab edirlər ki, hazırkı vəziyyət təkcə abituriyentlərin seçimləri ilə deyil, həm də qəbul sistemi və əmək bazarının magistr dərəcəsinə münasibəti ilə əlaqədardır.

### “MAGİSTRATURA TƏHSİLİ BİR İLƏ ENDİRİLMƏLİDİR”

Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Ceyhun Məmmədovun fikrincə, plan yerlərinin boş qalmasında bir çox amillərin rolu var: “Keçən il də plan yerləri çox boş qalmışdı. Hesab edirəm ki, getdikcə magistratura təhsili alanların sayında ciddi azalmanı müşahidə edəcəyik. Səbəblərdən biri magistraturanın 2 il olması ilə bağlıdır. Bu, gənclərdə magistraturaya marağı azaldır. Ona görə biz bu müddəti azaltmalıyıq. Magistratura təhsili bir ilə endirilməlidir. Digər tərəfdən, magistratura gənclər üçün hansısa üstünlük verməlidir. Əgər magistratura təhsili hər hansı üstünlük qazandırmırsa, onlar üçün mənasızdır. Bu sahədə ciddi islahatlara ehtiyac var”. Millət vəkilinin fikrincə, bu məsələ daha ciddi problem kimi özünü göstərməyə başlayacaq: “Yəni biz ciddi formada müəyyən addımların atılmasına başlamalı və gənclərin marağının artırılması üçün işlər görməliyik. Əks halda, problem daha da dərinləşəcək”.

Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü Günay Əkbərova hesab edir ki, təkcə boş qalan plan yerlərinin sayına baxaraq “maraq azalıb” demək düzgün olmaz: “Burada həm demoqrafik amillər, həm əmək bazarındakı dəyişikliklər, həm də gənclərin təhsilə baxışının dəyişməsi rol oynayır. Bununla belə, təxminən dörd min plan yerinin boş qalması onu göstərir ki, magistratura proqramlarının əmək bazarının tələbləri və gənclərin gözləntiləri ilə nə dərəcədə uzlaşdığı yenidən qiymətləndirilməlidir. Əgər bu tendensiya növbəti illərdə də davam edərsə, artıq daha sistemli addımların atılması vacib olacaq”.



### “BU TƏHSİL GƏLƏCƏKDƏ MƏNƏ NƏ QAZANDIRACAQ?”

G.Əkbərovanın fikrincə, son illər gənclər təhsil seçimlərinə daha praqmatik yanaşırlar və ilk növbədə bu sualı verirlər: “Bu təhsil mənə gələcəkdə nə qazandıracaq?” Əgər magistr təhsili daha yaxşı iş imkanı, yüksək əməkhaqqı və ya karyera inkişafı vəd etmirsə, onlar birbaşa əmək bazarına daxil olmağa üstünlük verirlər. Digər tərəfdən, beynəlxalq sertifikat proqramları, qısamüddətli peşə kursları və onlayn təhsil platformaları da alternativ seçimlərə çevrilib. Dünyanın bir çox ölkəsində də klassik magistr proqramlarına marağın müəyyən qədər azalması və daha çevik təhsil modellərinə üstünlük verilməsi müşahidə olunur”. Günay Əkbərovanın fikrincə, əvvəllər magistr təhsili bakalavr pilləsinin məntiqi davamı hesab olunurdusa, indi bu yanaşma dəyişib. Gənclər daha çox əmək bazarının tələblərinə uyğun qərarlar verirlər və yalnız ehtiyac gördükləri halda magistratura təhsilini seçirlər: “Xüsusilə xaricdə təhsil almaq, beynəlxalq sertifikatlar əldə etmək və ya iş təcrübəsi qazanmaq istəyənlərin sayı artıb. Bu da magistraturaya müraciət edənlərin sayına və seçimlərinə təsir göstərən əsas amillərdəndir”.







### İŞ HƏYATINA DAHA TEZ BAŞLAMAQ İSTƏYİ

G.Əkbərova hesab edir ki, gənclərin magistraturadan imtina etməsinin əsas səbəblərindən biri iş həyatına daha tez başlamaq istəkləridir: “Gənclər düşünürlər ki, iki il əlavə təhsil almaqdansa, həmin müddətdə iş təcrübəsi toplamaq onlara daha çox üstünlük qazandıra bilər. Digər tərəfdən, bəzi sahələrdə magistr diplomunun əməkhaqqına və ya vəzifə yüksəlişinə ciddi təsir etməməsi də onların qərarına təsir edir. Xaricdə təhsil planları, maliyyə imkanları və bəzi magistr proqramlarının məzmununun əmək bazarının tələblərinə tam uyğun olmaması da bu seçimdə rol oynayan amillərdəndir”. Ekspert deyir ki, hazırda informasiya texnologiyaları, süni intellekt, kibertəhlükəsizlik, data analitikası, biznesin idarə olunması, maliyyə və təhsilin idarə olunması kimi istiqamətlərə maraq daha yüksəkdir. Çünki bu sahələr əmək bazarında daha çox tələb olunur və məzunların iş tapmaq imkanları daha genişdir: “Ənənəvi ixtisasların bir qismində isə marağın əvvəlki illərlə müqayisədə azalması müşahidə olunur. Bu da gənclərin artıq daha çox məşğulluq perspektivlərini nəzərə alaraq seçim etmələri ilə bağlıdır”.

G.Əkbərova hesab edir ki, mövcud magistratura modeli müəyyən üstünlüklərə malik olsa da, onun təkmilləşdirilməsinə ehtiyac var: “Magistratura ixtisaslaşma mərhələsi olduğuna görə, namizədin ümumi məntiqi və analitik bacarıqları ilə yanaşı, seçdiyi ixtisas üzrə baza biliklərinin də qiymətləndirilməsi məqsədəuyğun olardı. Dünyanın bir çox universitetlərində qəbul zamanı həm ümumi akademik bacarıqlar, həm də ixtisas üzrə hazırlıq birlikdə nəzərə alınır. Bu yanaşma həm proqramların keyfiyyətini artırır, həm də tələbələrin daha şüurlu seçim etməsinə kömək edir. Məncə, gələcəkdə qəbul modeli hazırlanarkən bu təcrübələr də nəzərə alına bilər”. G.Əkbərovanın sözlərinə görə, ümumilikdə bugünkü vəziyyəti böhran kimi deyil, dəyişən təhsil və əmək bazarının təbii nəticəsi kimi qiymətləndirmək daha doğru olar: “Əsas məqsəd magistratura proqramlarını müasir dövrün tələblərinə uyğunlaşdırmaq, onların praktik dəyərini artırmaq və gənclərə bu təhsilin karyera inkişafında yaradacağı real üstünlükləri daha aydın göstərmək olmalıdır. Bu halda həm magistratura təhsilinə maraq artacaq, həm də ayrılan plan yerlərindən daha səmərəli istifadə olunacaq”.

# BALIQ BAZARINDA "TƏMİZLƏMƏ" ƏMƏLİYYATI

Balıq və balıq məhsullarının satışına nəzarəti gücləndirəcək yeni qanun layihəsi məhsulların elektron qeydiyyatını və mənşəyinin izlənməsini nəzərdə tutur. Ekspertlər hesab edirlər ki, bu, bazarda şəffaflığı artıra bilər, lakin gözlənilən nəticə yeni qaydaların necə tətbiq olunacağından asılıdır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Balıq və balıq məhsullarının satışı ilə bağlı yeni qaydalar hazırlanır. Milli Məclisin Aqrar siyasət komitəsində müzakirə olunan "Balıqçılıq haqqında" qanun layihəsi məhsulların mənşəyinin elektron sistemdə qeydiyyata alınmasını, satış prosesinə nəzarətin gücləndirilməsini, eləcə də qablaşdırma, etiketləmə və baytarlıq sənədləri ilə bağlı tələblərin sərtləşdirilməsini nəzərdə tutur. Layihənin əsas məqsədi balıq məhsullarının izlənəbilənliyini təmin etmək, qida təhlükəsizliyini gücləndirmək və bazarda şəffaflığı artırmaqdır. Bəs yeni mexanizm istehlakçıya hansı üstünlükləri vəd edir və balıq bazarında real dəyişiklik yarada biləcəkmi?

### "BALIQ MƏHSULLARININ UCUZLAŞMASINA MÜSBƏT TƏSİR GÖSTƏRƏCƏK"

Azərbaycan Balıqçılar İttifaqının rəhbəri Əfqan Əliyevin sözlərinə görə, ticarət dövriyyəsini və qida təhlükəsizliyini tənzimləyən yeni qanun layihəsinin hazırlanması ilə bu sahəyə yenidən ciddi diqqət yetirilməyə başlanıb: "Xüsusilə Kənd Təsərrüfatı Nazirliyinin nəzdində Akvakultura Mərkəzinin fəaliyyəti ölkəmizdə balıqçılığın bərpası və leqal ticarətin inkişafı baxımından böyük ümidlər yaradır. Yeni qaydaların tətbiqi və dövlətin bu sahəyə göstərdiyi xüsusi diqqət, balıq satışının şəffaflaşması həm yerli sahibkarların bu fəaliyyətə marağını artıracaq, həm də daxili bazarda balıq məhsullarının ucuzlaşmasına müsbət təsir göstərəcək. Azərbaycanda qanuni ticarət üçün münbit şərait var. Artıq yeni standartlara uyğun qablaşdırılmış balıq məhsullarımızı ixrac da edə biləcəyik. Hazırda Xəzər dənizinin Azərbaycan sektorunda və daxili su hövzələrində balıq ehtiyatlarının qorunması istiqamətində mühüm işlər görülür. Gələcəkdə müasir tələblərə cavab verən yeni müəssisələr fəaliyyətə başlayacaq, leqal sahibkarlara subsidiyalar ayrılacaq".

### BALIQÇILIĞA YENİ NƏFƏS GƏLƏCƏK

Ə.Əliyevin fikrincə, Milli Məclisdə balıqçılığın inkişafı və satış qaydalarının yenidən işlənməsi ilə bağlı geniş müzakirələr aparılıb. Səsləndirilən təkliflər və elektron izlənmə mexanizmləri ümid verir ki, həm təbii su hövzələrində fəaliyyət göstərən fermerlər, həm də rəsmi balıq ticarəti ilə məşğul olan sahibkarlar bu yeniliklərdən bəhrələnəcək və Azərbaycan balıqçılığına yeni nəfəs gələcək: "Sevindirici haldır ki, həm Xəzər dənizinə, həm də daxili su hövzələrinə nərəkimilər və çəki balıqları daxil olmaqla, müxtəlif növlər buraxılır. Bu proses sularımızda balıq populyasiyasının artmasına böyük təkan verəcək. Xəzərdən daxili su hövzələrinə gedən miqrasiya yolları təmizlənir, balıqların rahat çoxalması üçün maneələr aradan qaldırılır".

### "BAZARDA SAĞLAM RƏQABƏT FORMALAŞACAQ"

Mütəxəssis bildirdi ki, bundan sonra balıq ticarəti ilə məşğul olan bütün sahibkarlar vahid informasiya sistemi vasitəsilə dövlətin diqqətində olacaq. Əvvəllər satışa tam nəzarət edilmirdi, yerli və xarici balıqların növləri, mənşəyi barədə dəqiq məlumatlar yox idi. Yeni qaydalarla bu məsələlərə ciddi yanaşılacaq: "Bütün su hövzələrimizdə və Xəzərdə ovlanan balıqlar rəsmi qeydiyyata alınacaq. Hazırda ölkədə balıqçılıqla məşğul olan 700-ə yaxın müəssisə var, lakin onların cəmi 10-15 faizi rəsmi qeydiyyatdadır. Yeni yanaşma sayəsində yerdə qalan 80-85 faiz müəssisə də uçota alınacaq və balıq satışına nəzarət əhəmiyyətli dərəcədə gücləndiriləcək. Eyni zamanda, yeni qanunla kürüvermə dönəmi və populyasiya vaxtı ilə bağlı balıq qaydaların dəyişdirilməsi ehtiyatların inkişafına və bazar qiymətlərinin optimallaşmasına gətirib çıxaracaq. Sovet dövründən qalma qaydalar yalnız kağız üzərində idi və reallıqda balıq ehtiyatlarımız 90 faizə qədər azalmışdı. İndi isə qanunvericiliyin sərtləşməsi və populyasiya aylarının reallığa uyğun dəyişdirilməsi ilə ehtiyatların bərpası prosesi başlaya bilər. Bu qaydaların yenilənməsi, ixtisaslaşmış satış mərkəzlərinin qurulması və subsidiyaların ayrılması bazarda sağlam rəqabət formalaşdıracaq. Nəticədə həm qiymətlər aşağı düşəcək, həm qida təhlükəsizliyi təmin ediləcək".



**Foto:** Rüfət Mikayılov/Global Photostock

## "YENİ QAYDALARIN UĞURU İCRADAN ASILIDIR"

"Azərbaycan Balıq İstehsalçıları və Emalçıları Assosiasiyası" İctimai Birliyinin İdarə Heyətinin sədri Zaur Salmanlı isə düşünür ki, yeni qaydaların qəbulundan sonra bazarda sənədsiz balıq satışının tamamilə aradan qalxacağını söyləmək çətindir. Sənədsiz satış əvvəllər də qanunla qadağan idi, lakin reallıqda bu proses həmişə davam edirdi: "Düşünürəm ki, qanunsuz yolla əldə edilmiş balıqları satmaq istəyənlərin sayı nisbətən azalsa da, belə hallar bazarda yenə də mövcud olacaq. Başqa sözlə, həmin şəxslər öz fəaliyyətlərini bu və ya digər formada davam etdirəcəklər. Çünki qanunların mövcudluğu ilə yanaşı, əsas məsələ onların icrasına cavabdeh olan insanların niyyəti və yanaşmasıdır. Ümumiyyətlə, ölkəmizdə həm etiketləmə, həm də qida təhlükəsizliyi haqqında kifayət qədər qanunvericilik bazası var. Yeni qanun layihəsində irəli sürülən tələblərin əksəriyyəti əslində mövcud qanunlarda onsuz da öz əksini tapıb. Əsas problem həmişə bu qaydaların real tətbiqindəki boşluqlarla bağlı olub".



Zaur Salmanlı

Z.Salmanlı bildirdi ki, bazarda kütləvi hal alan problemlərdən biri Çindən idxal olunan qara kürünün daxili bazarda yerli məhsul adı və etiketi altında alıcılara təqdim olunmasıdır: "Qida Təhlükəsizliyi Agentliyi vaxtaşırı reydlər keçirərək bu kimi halların qarşısını almağa cəhd etsə də, vəziyyət dəyişmir. Paralel olaraq, Azərbaycana İrandan külli miqdarda balıq və balıq məhsullarının idxalı həyata keçirilir. Həmin idxal məhsulları da bazarda yerli məhsul kimi satılır. Nəzəri cəhətdən gözlənti odur ki, qanunvericiliyə edilən bu dəyişikliklərdən sonra alıcılarımız daha sağlam və mənşəyi məlum olan balıq məhsulları ilə təmin ediləcəklər. Yeni qanunun nə dərəcədə işlək mexanizmə çevriləcəyini zaman göstərəcək".



Əfqan Əliyev

# AVTOMOBİL BAZARINDA KREDİT BUMU

Son illərdə avtomobillərin kreditlə əldə edilməsi sahəsində ciddi dəyişikliklər müşahidə edilir. Bu prosesdə lizinq ön plana çıxır. Daha əlçatan avtomobillər isə elektromobil və hibridlərdir.

SEVİNC ABBASOVA

Son illər avtomobil bazarında kreditlə satış şərtlərinin əlçatanlığı diqqət çəkir. Əvvəllər vətəndaşların avtomobil sahibi olması üçün yüksək ilkin ödəniş və sərt kredit tələbləri əsas maneələrdən sayılırdısa, indi xüsusilə elektrik və hibrid avtomobillər üzrə daha çevik maliyyələşdirmə imkanları mövcuddur. Mərkəzi Bankın "Dayanıqlı maliyyə hesabatı"na əsasən, təkcə ötən il elektrik və hibrid avtomobillərin alınmasına 75 milyon manat kredit ayrılıb. Hesabatda qeyd olunur ki, 2025-ci il elektrik və hibrid avtomobil kreditlərinin ümumi avtomobil portfelində payı kreditlərin sayı üzrə 61 faizə, məbləği üzrə isə 71 faizə yüksəlib.

### AVTOMOBİLİN NÖVÜ VƏ İSTEHSAL İLİ KREDİT ŞƏRTLƏRİNƏ TƏSİR EDİR

Hazırda vətəndaşlar bəzi hallarda avtomobilin dəyərinin cəmi 10-20 faizini ilkin ödəniş kimi etməklə nəqliyyat vasitəsinə sahib ola bilirlər. Kreditləşmə şərtlərində avtomobilin növü və istehsal ili əsas rol oynayır. Məsələn, 35 min manat dəyərində elektromobili 59 aylıq kredit şərtləri ilə minimum 3 500 manat ilkin ödəniş etməklə almaq mümkündür. Bu zaman aylıq ödəniş təxminən 850 manat təşkil edir. Hibrid avtomobillər üzrə də oxşar imkanlar mövcuddur. 25 min manatlıq hibrid avtomobil üçün təxminən 10 min manat ilkin ödəniş tələb olunur və 59 aylıq kredit zamanı aylıq ödəniş 600-620 manat civarında dəyişir.

Bazarda lizinq imkanları da genişlənib. Belə ki, bəzi hallarda 20 min manatlıq avtomobili təxminən 4 min manat ilkin ödənişlə, 59 ay müddətinə aylıq 400-500 manat ödəməklə əldə etmək mümkündür.

Amma avtomobillərin aşağı ilkin ödənişlə kreditləşdirilməsi ilə bağlı yanaşmalar fərqlidir. Ekspertlər bildirirlər ki, bu cür imkanlar vətəndaşların avtomobilə əlçatanlığını artırır, bazarı canlandırır və daha yeni, ekoloji nəqliyyat vasitələrinin yayılmasına şərait yaradır. Digər tərəfdən, aylıq ödəniş yükünün artması bəzi ailələrin maliyyə risklərini yüksəldə bilər.

### LİZİNQ MEXANİZMİ GENİŞLƏNİB

Bank məsələləri üzrə ekspert Emin Kərimov deyir ki, son illərdə avtomobil kreditləri bazarında ciddi dəyişiklik baş verib və avtokreditlər tədricən lizinq mexanizmi ilə əvəz olunub. Hazırda bu sahədə əsas oyunçular bank olmayan kredit təşkilatları (BOKT-lar) və lizinq şirkətləridir. Ekspert qeyd edir ki, lizinq modeli həm maliyyə qurumları, həm də müştərilər üçün bir sıra üstünlüklər yaradır. Belə ki, lizinq portfelinin genişlənməsi şirkətlərin fəaliyyətinə müsbət təsir göstərir və bazarda yeni məhsulların formalaşmasına şərait yaradır.

Lizinqin əsas üstünlüklərindən biri mülkiyyət hüququnun şirkətdə qalmasıdır. Bu mexanizm kreditin daha effektiv idarə olunmasına imkan verir: "Lizinqdə avtomobil müştərinin adına keçmir, mülkiyyət hüququ təşkilatda qalır. Buna görə də ödənişlər daha ciddi izlənilir və intizam daha yüksək olur. Əgər müştəri ödənişləri dayandırarsa, avtomobilin geri alınması daha asan mexanizmlə həyata keçirilir. Bu sistem müştərilərin də maliyyə intizamını artırır və kredit öhdəliklərinə daha məsuliyyətli yanaşmasına səbəb olur".

Bununla belə, ekspert prosesin mənfi tərəflərinə də diqqət çəkir. Əsas risklərdən biri avtomobil sayının artması ilə bağlıdır: "Şəxsi avtomobillərin artması yol infrastrukturu üzərində təzyiqi gücləndirir və tıxac problemlərini artırır".




## DAHA ÇOX YENİ AVTOMOBİLLƏR MALİYYƏLƏŞDİRİLİR

İqtisadçı Eyyub Kərimli deyir ki, hazırda daha çox yeni avtomobillərin maliyyələşdirilməsinə üstünlük verilir. Onun fikrincə, bu yanaşma ölkədə avtomobil parkının yenilənməsi baxımından mühüm əhəmiyyət daşıyır: "Azərbaycanda bir milyon 500 minə yaxın avtomobil var və onların təxminən 80 faizi kifayət qədər köhnədir. Əksəriyyətinin on ildən yuxarı yaşı var. Yeni avtomobillərin kreditlə daha əlçatan olması köhnə avtomobillərin mərhələli şəkildə yenilənməsinə imkan yaradır".

Lakin iqtisadçı bu prosesin müəyyən mənfi tərəflərinin də olduğuna diqqət çəkir. O qeyd edir ki, avtomobillərin daha əlçatan olması ölkədə nəqliyyat vasitələrinin sayının sürətlə artmasına səbəb olur: "Yeni avtomobil əldə etmək imkanları genişləndikcə, daha çox insan şəxsi nəqliyyat vasitəsinə sahib olur. Bu isə yollardakı avtomobil sayının artması və tıxac probleminin dərinləşməsinə təsir edir".

E.Kərimli hesab edir ki, kredit siyasətində daha selektiv yanaşmanın tətbiqi məqsədəuyğundur. Onun sözlərinə görə, xüsusilə ekoloji baxımdan təmiz nəqliyyat vasitələrinə üstünlük verilməsi daha effektiv nəticələr verə bilər: "Bu kreditlərin əsasən elektrik və aşağı emissiyalı avtomobillərə yönləndirilməsi həm müasir qlobal trendlərə uyğun olar, həm də ölkədə avtomobil parkının ekoloji baxımdan daha təmiz formalaşmasına müsbət təsir göstərər".


Eyyub Kərimli

## ƏNƏNƏVİ AVTOMOBİLLƏR ÜÇÜN ŞƏRTLƏR ƏLÇATAN DEYİL


Eldəniz Cəfərov

Avtomobil bazarı üzrə ekspert Eldəniz Cəfərov isə kreditlə avtomobil satışında yumşalma ilə bağlı fikirlərlə razılaşmır. Onun sözlərinə görə, kredit şərtləri hələ də kifayət qədər sərt olaraq qalır və bir çox vətəndaş üçün əlçatan deyil.

Ekspert bildirir ki, hətta yüksək gəlirli şəxslər belə bəzən banklardan avtokredit ala bilmirlər: "Banklar çox vaxt avtokredit verməkdən imtina edir və yalnız daha yüksək gəlir göstəricisi olan müştərilərə üstünlük verirlər".

Ekspertin fikrincə, hazırda avtomobil kreditlərində ilkin ödəniş faizləri də yüksək olaraq qalır. Xüsusilə ənənəvi benzin və dizel mühərrikli avtomobillərdə şərtlər daha sərtdir: "Benzin və dizel avtomobilləri üçün ilkin ödəniş təxminən 40 faizdir ki, bu da kifayət qədər yüksək göstəricidir. Hibrid avtomobillərdə bu rəqəm 20 faizə, elektrik avtomobillərdə isə 10 faizə qədər enir. Lakin əsas problem yalnız ilkin ödəniş deyil, ümumilikdə kreditin verilmə şərtləridir".

E. Cəfərov vurğulayır ki, kreditlə bağlı imtinaların çox olması bazarın inkişafına mənfi təsir göstərir və vətəndaşları daha köhnə avtomobillərə yönləndirir.

# SÜFRƏMİZDƏKİ BALIN YENİ "PASPORTU"

Bal bazarında həm istehsalçıları, həm də istehlakçıları yaxından maraqlandıran yeni sanitariya norma və qaydaları hazırlanır. Sektoru hazırda ən çox düşündürən məsələ isə ölkəyə kənardan gətirilən keyfiyyətsiz balın yerli arıçılığı məhvetmə təhlükəsidir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



Azərbaycanda bala dair sanitariya norma və qaydaları təsdiq ediləcək. Bununla bağlı müvafiq texniki normativ hüquqi akt layihəsi artıq hazırlanıb və aidiyyəti qurumlarla razılaşdırılma mərhələsindədir. Layihəyə əsasən, filtrlənmiş və bişirmə bal istisna olmaqla bal istehsal edildiyi bölgənin bitki örtüyünə xas xüsusiyyətləri daşıyırsa, məhsulun adının həmin bölgənin coğrafi və ya topoqrafik adı ilə birgə yazılmasına yol veriləcək. Bəs yeni qaydalar daha hansı məqamları ehtiva edəcək?

### "SƏNƏD BALIN TƏHLÜKƏSİZLİYİ VƏ MİNİMUM KEYFİYYƏT GÖSTƏRİCİLƏRİNİ MÜƏYYƏN EDİR"

AQTA-dan sorğumuza cavab olaraq bildirildi ki, yeni texniki normativ hüquqi akt layihəsi aidiyyəti qurumlarla razılaşdırılması, o cümlədən ictimai müzakirə üçün "Lisenziyalar və icazələr" portalına yerləşdirilib: "Yeni sənəd balın təhlükəsizliyi və minimum keyfiyyət göstəricilərini müəyyən edir və bu sahədə mövcud tənzimləmələri daha da təkmilləşdirir. Qaydalar Avropa İttifaqının müvafiq direktivləri və Kodeks Alimentarius Komissiyasının "bal standartı" sənədləri əsasında formalaşdırılıb. Qaydalar balın bütün növlərinə - çiçək balı, gəzəngi (şirə) balı, şan balı, süzmə bal və digər formalarına şamil olunur. Sənəddə məhsulun tərkibi, istehsal üsulları, saxlanma şəraiti, daşınma qaydaları və etiketləmə tələbləri müəyyən edilib".

Həmçinin bildirildi ki, yeni tələblərə əsasən, bala hər hansı kənar maddənin əlavə olunmasına yol verilmir. Balın təbii xüsusiyyətləri qorunmalı və süni müdaxilələrə məruz qalmamalıdır. Məhsulun saxlanması və daşınması zamanı temperatur və gigiyena qaydalarına ciddi riayət olunmalıdır, etiketləmə zamanı istehlakçılara düzgün və tam məlumat təqdim edilməlidir: "Etiketlərdə "Bir yaşına qədər körpələrə bal verilməməlidir" xəbərdarlığı mütləq qeyd olunmalıdır. Sənəddə botanik mənşəyi məlum olan ballar üçün çiçək tozcuğu tərkibinə dair minimum göstəricilər müəyyən edilib ki, bu da məhsulun mənşəyinin müəyyən edilməsinə imkan verir. Qaydaların tətbiqi bal istehsalında keyfiyyətin yüksəldilməsinə, saxta bal məhsullarının dövriyyəsinin qarşısının alınmasına, eləcə də istehlakçı hüquqlarının qorunmasına xidmət edəcək".

### "DÜNYADA YALNIZ ETİKETLİ BAL SATILMASI KİMİ TƏLƏB YOXDUR"

Azərbaycan Arıçılar Assosiasiyasının idarə heyətinin üzvü, "Balçı" MMC-nin əməkdaşı Elvin Bayramlının sözlərinə görə, hazırda müxtəlif ölkələrdən Azərbaycana külli miqdarda keyfiyyətsiz arı məhsulları idxal olunur və bunun qarşısı mütləq alınmalıdır: "Eyni zamanda, arı məhsullarının istehsalı və saxlanması barədə düzgün təbliğat aparılmalı, sosial şəbəkələrdə arıçı olmayan bəzi şəxslərin laboratoriya yoxlamalarına qarşı çıxışlarının qarşısı alınmalıdır. Digər tərəfdən, verilən rəsmi sənədlərə qarşı cəmiyyətdə etibar formalaşmalıdır. Hazırda alıcılar bu sənədlərə çox vaxt inanmırlar. Bundan əlavə, mövcud laboratoriyalar bəzi göstəriciləri yoxlasa da, fruktoza, qlükoza və kimyəvi qalıqları tam aşkarlaya bilmir. Həmçinin yeni qaydalara əsasən yalnız etiketli balların yoxlanılması tələbi yolverilməzdir. Dünyanın heç bir yerində bütün arıçıların yalnız etiketli bal satması kimi bir tələb yoxdur. Əgər bir vətəndaş aldığı balı gətirib yoxlatmaq istəyirsə, bu, təmin edilməlidir. Yeni qaydalar beynəlxalq standartlara cavab verməklə yanaşı, həm də işlək olmalıdır".

### SAXTA BAL PROBLEMİ

E.Bayramlının fikrincə, bəziləri tam saxta, bəziləri isə şəkər qarışdırılmış ballar istehsal edərək satırlar: "Bu, dürüst arıçıların işinə mane olmaqla yanaşı, cəmiyyətdə ümumi şübhə yaradır. Saxta məhsul bazardakı bütün təbii ballara qarşı inamsızlığa səbəb olur. Digər bir məsələ filtrlənmiş baldır. Təbii balın tərkibindəki çiçək tozluqları insan üçün çox faydalıdır, lakin onlar bəzən balın xarlanmasına və çöküntü verməsinə səbəb olur. Aparatda süzülmüş və çöküntüsü alınmış bal xam bal adlanır. Lakin bal xüsusi incə filtrlərdən keçirildikdə, tərkibindəki tozcuqlar tamamilə təmizlənir, məhsul şəffaflaşır, lakin bu zaman məhsul öz orijinallığını və xamlığını itirir".

## "Qeydiyyatsız fəaliyyət göstərənlər cərimədən kənarda qalır"



Elvin Bayramlı



Mütəxəssis bildirdi ki, dövlət nəzarəti vacibdir, amma ədalətli olmalıdır: "Problem ondadır ki, iş görmək istəyən cərimələnir. Heç bir infrastruktur qurmayan, qeydiyyatsız fəaliyyət göstərənlər isə yoxlamadan kənarda qalır, çünki onlar görünmürlər. Belə olan halda heç bir arıçı dövlətlə müqavilə bağlamaq və rəsmi sənədləşmə işlərinə getmək istəmir. Kənd şəraitində fəaliyyət göstərən arıçıdan ən yüksək standartları tam şəkildə tələb etmək yanlış yanaşmadır. Nəzarət elə qurulmalıdır ki, istehsalçıları tədricən inkişafa təşviq etsin".

E.Bayramlının sözlərinə görə, sənədlər reallığa uyğun işləməlidir: "Qanunlar qəbul edilərkən arıçılarla məsləhətləşmələr aparılmalı, ictimai müzakirələr təşkil olunmalıdır. Arıçılar üçün ən böyük risk xəstəliklərdir. Saxta bal problemi, müəyyən şərtlər daxilində arıçıların öz təşəbbüsü ilə də həll oluna bilər. Lakin xəstəliklərə qarşı mübarizədə heç bir dövlət qurumu arıçının yanında deyil. Əksinə, yalnız maneələr yaradılır. Bundan əlavə, xaricdən keyfiyyətsiz, virusa yoluxmuş və sənədləri saxta olan arılar gətirilir. Məsələn, idxal olunan arının sənədində "Karnika" cinsi yazılsa da, qurumlar bizə onun "Karpat" olduğunu deyirlər. Ortada belə ciddi problemlər var. Arılar ölürsə, xəstəlik yayılırsa və dövlət müalicə işində dəstək olmursa, nəticədə arıçılıq məhv olur. Belə olan halda balın təbii və ya saxta olmasının da heç bir önəmi qalmır, çünki ortada bal olmayacaq. Bizə ilk növbədə sağlam arı lazımdır".



# SƏYAHƏT SIĞORTASI HANSI YARALARA MƏLHƏM OLUR?

Bəzi hallarda səfər sığortası olan şəxs getdiyi ölkədə problemlə üzləşir və bu zaman sığortaçı ilə aralarında anlaşılmazlıq yaranır. Səyahətçi hesab edir ki, onun başına bir iş gəlibsə, xərcləri ödənilməlidir. Sığorta şirkəti isə müqaviləni əsas tutaraq, heç də bütün xərclərin qarşılanmadığında israr edir.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

"Keçən ay xaricdə səfərdə olan zaman başımıza bir hadisə gəldi, amma sığorta xərcləri qarşılamadı. Biz səyahət sığortası etdirəndə məlumat vermişdilər ki, sığortanız səfirlikdə keçərlidir, lakin hansısa hadisə zamanı işə yaramayacaq. Bunu istəyirsinizsə, günü 1000 avro olan sığorta etdirməlisiniz. Yəni əgər viza üçün yox, həqiqətən də səfəri təminata almaq üçün sığorta etdirmək istəyirsinizsə, bunu mütləq diqqətdə saxlayın. Sizə baha başa gələcək, amma Allah göstərməsin, pis bir hadisə zamanı zərərinizi qarşılayacaq".

Xaricə səfəri zamanı sığortadan istifadədə problemlə qarşılaşan Sevda Əhmədova (ad şərtidir) adlı xanımın hekayəsi səyahətə çıxanlardan bu mövzuda həqiqətən diqqətli və tədbirli olmağı tələb edir.

Təcrübələr də göstərir ki, bəzi hallarda sığortalı şəxs səfər zamanı problemlə üzləşir və sığortaçı ilə aralarında anlaşılmazlıq yaranır. Səyahətçi hesab edir ki, onun başına bir iş gələrsə, xərcləri ödənilməlidir, sığorta şirkəti isə müqaviləni əsas tutaraq heç də bütün xərclərin qarşılanmadığında israr edir.

Sosial platformada mövzu ilə bağlı keçirdiyimiz sorğuda da səyahətçilər "tibbi yardımın gecikməsi", "zəng mərkəzinin gec cavab verməsi", "təcili halda özün ödəməli olub, sonra sənəd təqdim etməli olursan və bu halda ödənişin tanınmaması", "resept, arayış, qəbzdə düzgün qeydlər edilməyib, həkim diaqnozu dəqiq yazılmayb", "gec müraciət olunub, vaxt keçdikcə şirkət məsuliyyəti qəbul etmir" və s. kimi bəhanə xarakterli cavablar aldqılarını qeyd etdilər.

Sığorta şirkətlərindən birinə ünvanladığımız sualın cavab isə belə oldu: "Sığorta etdirənlər daha çox müxtəlif xəsarətlər, kəskin respirator virus infeksiyaları, soyuqdəymə, xroniki xəstəliklərin kəskinləşməsi, qida zəhərlənmələri, heyvan dişləmələri və s. kimi problemlərlə bağlı sığorta şirkətlərinə müraciət edirlər. Müraciətlərə şirkət tərəfindən dərhal reaksiya verilir".

Bəs sığorta etdirənlərin səsləndirdiyi narazılıqlar nədən qaynaqlanır: səyahətə çıxanların məlumatsızlığından, yoxsa sığortaçıların məsuliyyətsiz davranışından?



## Qəfil xəstəlik, bədbəxt hadisə, ölüm...

Hazırda Şengen vizası almaq istəyən hər bir şəxs üçün səyahət sığortası məcburi tələb olunan sənədlərdən biridir. Bu sığorta Avropa İttifaqına daxil olan ölkələrə səfər edən turistlərin, iş adamlarının və digər səyahətçilərin gözlənilməz tibbi və digər fövqəladə hallarda maliyyə baxımından qorunmasını təmin etmək məqsədi daşıyır.

Səyahətə çıxanların çoxu sığorta şəhadətnaməsini təkcə viza almaq tələbi ilə məhdudlaşdırır, bu sənədin əhəmiyyətinin daha geniş olduğunu unudurlar. Belə ki, istirahət və ya digər məqsədlərlə etdiyimiz səyahət zamanı hər şeyin problemsiz keçməsini istəsək də, bəzi hallarda gözlənilməz hadisələrlə qarşılaşmaq mümkündür. Sığorta sənədi isə səfərdə təsadüfən yaranan və gözlənilməyən risklər zamanı səyahətçini qorumalıdır. Sığorta hadisəsi əsasən qəfil xəstəlik, bədbəxt hadisə və ölüm hallarını əhatə edir. Həmçinin səyahətçinin qarşılaşa biləcəyi - baqaj itməsi, reysin ləğvi və ya gecikməsi, pasportun və digər sənədlərin itməsi və s. kimi hallarda maliyyə dəstəyi verir. Amma bəzən insanlar səyahət sığortasının istifadəsində problemlə qarşılaşırlar, hadisə zamanı hara və ya kimə müraciət etmək lazım olduğunu bilmirlər və ya sığortaçı ödəmədən imtina edir. Sığorta müqaviləsi üzrə yaranan mübahisələr ölkə qanunvericiliyinə əsasən, məhkəmə qaydasında və ya müvafiq inzibati prosedurlar vasitəsilə həll olunur. Amma mübahisənin bu instansiyalara qədər çatmaması üçün səfərdən öncə tədbirli olmaq və bu istiqamətdə bilgilər almaq tövsiyə olunur.

### "ÇOX VAXT ALDIQLARI SIĞORTANIN DETALLARINA FİKİR VERMİRLƏR"

Sığorta eksperti İlkin Nəcəfovun sözlərinə görə, səfər sığortası alanların on nəfərdən doqquzu sığorta şirkətinə yalnız viza almağın tələbi kimi müraciət edir: "Ona görə də çox vaxt aldıqları sığortanın detallarına fikir vermirlər. Sığortanı satanların da çoxu bunu turizm şirkəti vasitəsi ilə həyata keçirirlər. Turizmçilər də müştəriyə sənədin detalları haqqında ətraflı məlumat vermirlər". Ekspert qeyd edir ki, hər bir səfər sığortasının PDF-ində və kağız variantının son vərəqində qeyd edilən "WhatsApp" nömrəsi və göstərilən assistant xidmətləri yer alır: "Hadisə baş verəndə sığortalı həmin nömrəyə zəng edib yaxınlıqdakı tibb müəssisəsinə yönəldilir. Bəzi hallarda assistant xidmətlərinə yönləndirmədə sıxıntı yaşanır. Müştərilər Bakıya - çağrı mərkəzlərini yığanda şirkətlər alternativ yol kimi "xəstəxanaya müraciət edin, orada özünüz müalicənizi alın. Bakıya qayıdanda ofisə yaxınlaşın, qəbz və epiqriz kağızlarını gətirin, biz də vəsaiti sizin üçün bərpa edərik. Hər bir sığorta müqaviləsində 30 ya 50 min dollar və ya avro dəyərində azadolma olur. Ona qədər olan xərcləri müştəri özü çəkməlidir. Sığorta şirkəti yalnız bu məbləğdən çox olan xərcləri çəkir".



İlkin Nəcəfov



Əli Bayramov

### DÜNYANIN HƏR YERİNDƏ MÜKƏMMƏL İŞLƏYƏN MEXANİZM

Sığorta mütəxəssisi Əli Bayramovun sözlərinə görə, səyahət sığortası dünyanın hər yerində mükəmməl işləyən mexanizmdir: "Səyahət edən şəxs başına bir iş gələn zaman dərhal sənəddə qeyd edilən çağrı mərkəzinə müraciət edir və ona uyğun şəkildə yönləndirilir. Adətən dəymiş zərəri sığorta şirkəti özü ödəyir və ya müştəri xərci yerində çəkir, sonra sənədlərlə sığortaçıya müraciət edib çəkdiyi xərci geri ala bilər". Mütəxəssis bildirir ki, səyahət sığortası bədbəxt hadisələr zamanı dəyən ziyanı və tibbi xərclərlə bağlı təminatı birləşdirir: "Ucuz sığortada təminat limitli olur. Vətəndaş könüllü sığorta əldə etsə, daha geniş təminat da əldə edə bilər".

Kaspi İDMAN
ÜÇ ƏSRİN QƏZETİ
8 AVQUST ŞƏNBƏ 2026
www.kaspi.az

İlk oyunlar göstərdi ki, həm "Orxus", həm də "Dinamo" keçiləsi rəqiblərdir. Xüsusilə, "Sabah" sərgilədiyi üstün oyunla danimarkalıların qorxulu komanda olmadığını sübuta yetirdi.

# UDUZDULAR, AMMA YENƏ DƏ ÜMİD VAR




Avrokubokların yeni mövsümündə ilk mərhələdən sonra azərbaycanlı azarkeşlərin klublara inamı daha böyük idi. İkinci raund "Zirə" və "Neftçi"nin sıradan çıxması ilə nəticələndi. Üstəlik daha böyük gözləntilərin olduğu "Qarabağ" da Avropa Liqasında (AL) Bolqarıstan təmsilçisi ÇSKA ilə duellərdən məğlub ayrıldı. Beləliklə, ağdamlılar "köhnə qitə"nin səviyyəcə üçüncü yarışı olan Konfrans Liqasına (KL) yollandılar.

**DANİMARKADA ÜMİDVERİCİ OYUN**

Çempionumuz "Sabah" davam edən avrokubok mövsümündə ən uğurlu təmsilçimizdir. Çempionlar Liqasında (ÇL) yarışan Valdas Dambrauskasın komandası ilk iki mərhələni dörd qələbə ilə birnəfəsə keçərək artıq Konfrans Liqasının liqa mərhələsini özü üçün təmin edib. Lakin "futuristlər"in iddiası daha böyükdür. "Sabah" ilk dəfə iştirak etdiyi ÇL-in pley-off mərhələsinin bir addımlığındadır. Komanda bu həftə üçüncü təsnifat mərhələsinin ilk oyununa çıxdı. Budəfəki rəqib Danimarka çempionu "Orxus" ikinci təsnifat mərhələsində Polşa "Lex"inə qarşı etdiyi geridönüşlə artıq Avropada diqqət çəkməyi bacarıb və möhkəm komanda olduğunu sübuta yetirib. "Sabah" ilə "Orxus" arasında Danimarkada baş tutan ilk oyunun nəticəsi gedişatı tam əks etdirmədi. Azarkeşlər bir məsələdə həmfikirdirlər ki, meydanda daha yaxşı olan tərəf Azərbaycan çempionu idi. Düzdür, qarşılaşmanın ilk 20 dəqiqəsində meydan sahibləri üstün görünürdülər. Lakin "Sabah" tezliklə oyunda balans yaratmağı bacardı. Elə bu anlarda rəqibin hesabı açması, ikinci hissədə daha bir qol vurması da çempionumuzu ruhdan salmadı. "Sabah" Velyko Simiçin qolu ilə fərqi minimuma endirərək cavab oyununa azarkeşlərin daha ümidli yanaşmasına şərait yaratdı.

Ümumiyyətlə, "Sabah" Danimarka çempionuna qarşı çox inamlı oyun göstərdi. Komanda məğlub olsa da, meydanda daha üstün tərəf idi. Bu, özünü həm təhlükəli vəziyyətlərin sayında, həm ümumən oyuna nəzarətdə göstərirdi. Rəqibə demək olar ki, şans verməyən paytaxt klubunun buraxdığı qollar bir oyunçunun fərdi ustalığından, bir az da bəxt amilindən yarandı. Əvəzində "Sabah"ın dirəkdən, tirdən qayıdan zərbələri, ümumən çoxlu qol vəziyyətləri oldu. İlk oyun göstərdi ki, "Orxus" "Lex"ə qarşı ikinci oyunda göründüyü qədər qorxulu komanda deyil. Xüsusən, rəqib müdafiə xətti təzyiq altında çoxlu səhvlər edir. Bakıdakı cavab oyununda bunlardan daha yaxşı yararlanmaqla vəziyyəti xeyrimizə çevirmək mümkündür.

## Dişsiz görünən "Qarabağ"

Bu yay heyətini yeniləyən "Qarabağ" isə hələ ki, ondan gözlənilən oyunu göstərməyi bacarmır. AL ilə vidalaşan "atlılar" KL-də də ilk oyunu məğlubiyyətlə başa vurdu. III təsnifat mərhələsində rəqib olan Kiyev "Dinamo"su ad olaraq çox böyük səslənsə də, komandaların mövcud vəziyyəti bu cütdə "Qarabağ"ı daha üstün saymağa imkan verir. Lakin ağdamlılar heç də ötən mövsüm ÇL-də parlaq nəticələr əldə edən komandaya bənzəmir. "Dinamo" ilə Polşada baş tutan ilk oyun Azərbaycan təmsilçisinin ifasında son illər izlədiyimiz qarşılaşmalara bənzəmirdi. Həmişə hücum edən, rəqib qapısını təzyiqdə saxlayan "Qarabağ" kiyevliləri ciddi heç nə ilə təəccübləndirə bilmədi. Düzdür, topa nəzarət, qapıya ümumi zərbələrin sayında komandamızın üstünlüyü oldu, lakin ağdamlıların yüz faizlik qol imkanının olduğunu iddia etmək çətindir. Əvəzində Ukrayna təmsilçisi əlinə düşən imkanlardan birini qola çevirdi. Əslində, həmin qol zamanı "Qarabağ" futbolçularının da "əməyi" az olmadı. Zubirlə başlayan səhvlər dalğası Varkonyi ilə davam etdi, Silva və Koxalski isə rəqib hücumçuya mane olmağı bacarmadılar. 11-ci dəqiqədəki bu epizoddan sonra "Qarabağ" nə qədər çalışsa da, nəinki geridönüş edə bilmədi, heç bərabərliyi təmin etməyi də bacarmadı. "Qarabağ" artıq üç oyundur, avrokuboklarda qol vurmağı bacarmır. Komandanın sonuncu dəfə nə zaman belə vəziyyətlə üzləşdiyini xatırlamaq çətindir. Bu, ağdamlıların hücumda necə sıxıntı yaşadığının aşkar göstəricisidir. Kamilo Duranın yerinə transfer edilən Zakariya Savonun zədələnməsi komandanı çətin vəziyyətə salıb. "Ağdamlılar" "Dinamo" qarşısına nominal hücumçusuz çıxmışdılar. Aleksey Kaşşuk irəli xətdə yer alsa da, effektiv ola bilmədi.

## "Qarabağ" üçün hələ heç nə bitməyib

İlk oyunlar göstərdi ki, həm "Orxus", həm də "Dinamo" keçiləsi rəqiblərdir. Xüsusilə, "Sabah" sərgilədiyi üstün oyunla danimarkalıların qorxulu komanda olmadığını sübuta yetirdi. Əksinə, indi çəkinməli olan tərəf məhz "Orxus"dur. Əlavə heç nəyə ehtiyac yoxdur: "Sabah" ilk oyundakı performansı təkrarlasa, Bakıda nəinki minimal hesablı geriliyi aradan qaldırmaq mümkündür, hətta 90 dəqiqə ərzində pley-off üçün lazım olan nəticəni əldə edə də bilərik. Elə "Qarabağ" da toparlanaraq hücumda kəskinliyi artırsa, "Dinamo"nu asanlıqla məğlub edə bilər. Kiyev klubunun əvvəlki gücündən əsər-əlamət qalmayıb. İlk qarşılaşmadakı məğlubiyyətə baxmayaraq, "Qarabağ" cütün favoritidir və doğma publika qarşısında lazımi nəticəni qazanmaq ehtimalı çoxdur.



"Sabah" "Orxus" səddini aşacağı təqdirdə ÇL-in pley-offunda "Hapoel" (Beer-Şeva, İsrail) - "Srvena Zvezda" (Serbiya) cütünün qalibi ilə üz-üzə gələcək. Azərbaycan çempionu məğlub olacağı halda AL-in pley-offunda "Benfika" (Portuqaliya) - "Harts" (Şotlandiya) cütünün güclüsü ilə qarşılaşacaq. "Qarabağ" isə KL-də liqa mərhələsinə düşmək üçün "Dinamo"nun ardınca "Tvente" (Niderland) - "DAC 1904" (Slovakiya) cütünü qalibini də mübarizədən kənarlaşdırmalıdır.